RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 13 (9468) 23 YANVAR 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Əbədi ehtiramla

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər




**Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdi.**

**Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**





# Dünyanın ən müasir ekoloji layihəsi




## Prezident İlham Əliyev Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında tikinti, abadlıq işləri və Ofis binasında yaradılan şərait ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşan Bakı Ağ Şəhər Ofis binasında yaradılan şərait ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, hazırkı Ağ Şəhərin ərazisi 150 ildən çox idi ki, Qara şəhər kimi tanınırdı. Buraya Qara şəhər adının verilməsi də təsadüfi deyildi. Ərazi neft sənayesi tullantılarından çirklənmişdi. Burada çox sayda bataqlıq, gölməçə və neft tullantıları var idi. Bir sözlə, Qara şəhər əsl ekoloji fəlakət zonasına çevrilmişdi.

Bütün bu amilləri nəzərə alan Prezident İlham Əliyevin təşəbbüsü ilə Qara şəhərin yerində hazırda dünyanın ən müasir ekoloji layihəsi olan Ağ Şəhərin salınmasına başlanıldı.

Nadirliyi ilə seçilən Bakı Ağ Şəhər layihəsinin təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən 2011-ci il dekabrın 24-də qoyulub. Bakının ekoloji cəhətdən ən çox çirklənmiş bu yerində aparılmış irimiqyaslı tədbirlər nəticəsində həm şəhərsalma, həm memarlıq, həm sakinlərin rahat yaşayışı, həm də ekoloji baxımdan sözün əsl mənasında möcüzəvi layihə reallaşdırılıb.

Dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində həyata keçirilən Bakı Ağ Şəhər layihəsi irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi də artıq dünyada tanınıb. Dünyanın aparıcı şirkətlərinin yerli mütəxəssislərlə birgə layihələndirdiyi bu yaşayış məkanı bir çox beynəlxalq sərgilərdə dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara layiq görülüb. İndi bu ərazi Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yaşayış və gəzinti zonalarından birinə çevrilməkdədir.

Ümumilikdə, 1650 hektar ərazini əhatə edən Bakı Ağ Şəhərdə müxtəlif üslublu 10 rayonun salınması, 120 min yaşayış və xidmət obyektinin tikintisi, 350 hektar landşaft işlərinin görülməsi, 10 kilometr bulvar xəttinin yaradılması nəzərdə tutulub. İndiyədək 91 binanın inşası yekunlaşıb. Layihənin tam yekunlaşmasından sonra burada 280 min sakin yaşayacaq və 240 min iş yeri yaradılacaq.

Məlumat verildi ki, inşası mərhələli şəkildə həyata keçirilən Bakı Ağ Şəhərin Mərkəzi Park Rayonunda bir sıra binaların, ictimai yerlərin tikintisi artıq başa çatıb, infrastruktur işləri həyata keçirilib. Müxtəlif küçələrin tikintisi, yeraltı kommunikasiya infrastrukturunun qurulması ilə bağlı işlər də yekunlaşıb. Layihələndirmə işləri zamanı Bakı Ağ Şəhərdə inşası nəzərdə tutulmuş Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiya hazırlanıb. Tamamlama işləri çərçivəsində əlil arabaları üçün pandusla, yerüstü piyada keçidləri, qoruyucu dayaqlar tikilib, videomüşahidə kameraları qurulub, İT kanal sistemləri çəkilib.

→ 2

## Milli yüksəliş və tərəqqi dövrü

### Siyasi və iqtisadi müstəqillik Azərbaycanı güc və söz sahibinə çevirib

Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə ölkəmizin deyil, qonşu regionların da inkişafına mühüm töhfəsini verir. Bu layihələr arasında Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında başlıca rol oynamaq qabiliyyətinə malik "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr yer alır.

→ 10

## Azərbaycan seçicisi iradəsini ifadə etməkdə sərbəstdir

### Prezident seçkilərindən sonra ölkəmizi daha parlaq gələcək gözləyir

Hazırkı mürəkkəb beynəlxalq münasibətlər şəraitində gənc və müstəqil Azərbaycanın təhlükəsizliyini təmin etmək, mövqeyimizi daha da möhkəmləndirmək vacib şərtlərdəndir. Ümumiyyətlə, indiki halda ölkələrin hərtərəfli inkişafını təmin etmək böyük siyasi təcrübə tələb edir. Ona görə də xalq öz səsini güclü təməllər üzərində qurulmuş siyasi kursa, aydın və qəti mövqeyə sahib namizədə verməlidir.

→ 9

## Füzulililərin şad günü

### Daha 30 ailə - 106 nəfər doğma yurda qovuşdu

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailənin işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulur. Ötən dövrdə həyata keçirilən layihələr onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlinir. Ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına qovuşurlar.

→ 12

## 80 mindən çox etirazçı küçələrə çıxıb

### Fransada kütləvi aksiyalar keçirilir

Aksiya iştirakçıları yanvarın 25-də qanun layihəsinin konstitusiya normalarına uyğunluğu barədə qərar qəbul edəcək Fransa Konstitusiya Şurasına müraciət etmək niyyətindədirlər.

Qanunun qəbuluna qarşı yürüş mədəniyyət xadimlərinin, elm adamlarının, din xadimlərinin, həmkarlar ittifaqlarının, müxtəlif assosiasiyaların və solçu partiyaların - sosialistlərin (PS), Yenilməz "Fransa"nın (LFI), yaşılların (EELV) və kommunistlərin (PCF) çağırışı ilə keçirilir. Yürüş çağırışına 201 imza toplanıb.

→ 11

## Fransalı nazir Ukraynada muzdlu fransız döyüşçülərinin olduğunu təsdiqlədi

İllərlə Ermənistanın işğal olunmuş ərazilərimizdə möhkəmlənməsi üçün maddi yardımlar göstərən, işğalçı ölkəni silah-sursatla təmin edən, ərazilərimizdə istehkamlar tikib terrorçulara hərbi təlimlər keçən Fransa 2020-ci ilin payızında baş verən Vətən müharibəsi zamanı Ermənistanın ölkəmizə qarşı dünyada apardığı şər, böhtan təbliğatına flaqmanlıq etdi. Ölkəmizə qarşı hər cür avantüraya əl atan rəsmi Paris, Azərbaycan Silahlı Qüvvələri tərəfindən darmadağın edilən Ermənistan ordusunun rəzil duruma düşdüyünü hiss edib Azərbaycan tərəfində muzdluların döyüşdüyü haqqında yalan məlumatlar yaydı.

→ 11

# Dünyanın ən müasir ekoloji layihəsi

## Prezident İlham Əliyev Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında tikinti, abadlıq işləri və Ofis binasında yaradılan şərait ilə tanış olub



















*Əvvəli 1-ci səh.*

Mərkəzi Park Rayonu 2017-ci ildə istifadəyə verilmiş Paris evlərindən başqa 36, 20 və 8 mərtəbəli binalardan, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binalarından, ticarət və iaşə obyektlərindən, orta məktəbdən, ofis və inzibati binalardan ibarətdir. Layihələndirmə zamanı Ağ Şəhərin Mərkəzi Park Rayonunun yaşayış massivinin ərazisində yaşıl zonalar - parklar və xiyabanlar nəzərdə tutulub. Onların arasında Dağdağan bağı da var.

Vətəni Qarabağ olan dağdağan ağacı Azərbaycanın rəmzlərindən biridir. Prezident İlham Əliyev 2021-ci ilin mayında Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində Ağdam şəhərində dağdağan ağacı əkib. Dağdağan ağacları Ağ Şəhərə Qarabağdan gətirilib.

Dövlət başçısı bağın ərazisində dağdağan ağacı əkdi.

Son illər Bakı Ağ Şəhər həm də bir sıra yerli və beynəlxalq incəsənət ustalarının öz əsərlərini nümayiş etdirdiyi bir məkana çevrilib. Ağ Şəhərin mərkəzi küçələrindən olan və inşası əsasən tamamlanmış Bulvar küçəsində yerli və xarici rəssamların incəsənət əsərləri quraşdırılıb.





Heykəltaraş Enrike Kabreranın "Böyük alma" əsəri onun ən mühüm sənət layihələrindən biridir. Nyu Yorkda quraşdırılmış "Böyük alma" bu şəhərin rəmzini təcəssüm etdirməklə onun sakinləri və qonaqları arasında çox məşhurdur. Bu əsərin ikincisi isə Bakı Ağ Şəhərdə sərgilənir.

Azərbaycan MAAS incəsənət qurumunun müasir üslubda hazırladığı hündürlüyü 4,2 metr olan "Əjdaha" heykəli 2024-cü ilin rəmzinə həsr olunub. Şərq təqviminə görə, 2024-cü ilin rəmzi əjdahadır.

Cozef Klibanskinin "Mütəfəkkir" əsəri müasir insanın texnoloji inkişaf dövrünü, ekoloji və qlobal istiləşmə problemlərindən yaranan həyəcanlarını əks etdirir. Bürüncdən hazırlanmış heykəl artıq bütün dünyada sənətsevərlərin rəğbətini qazanıb. Heykəlin müəllifi 2014-cü ildə Bakının zəngin memarlığından, qədimliyin və müasirliyin vəhdətindən ilhamlanaraq Azərbaycanın paytaxtının gözəlliyini tərənnüm edən "Gözəl Bakı" əsərini də yaradıb.

Prezident İlham Əliyev tikintisi başa çatan Bakı Ağ Şəhər Ofis binası ilə də tanış olub. Binanın inşasına 2020-ci ildə başlanılıb, Azərbaycanın Vətən müharibəsində Qələbəsinə və suverenliyinin bərpasına həsr olunub.

Binada dünyanın aparıcı memarlıq şirkətləri tərəfindən layihələndirilmiş müasir tikililərin maketləri təqdim olunur. Yeni binaların layihələndirilməsi zamanı Ağ Şəhərin ekoloji ənənələrinə və dünyanın müasir ekoloji tələblərinə uyğun olaraq "yaşıl bina", enerjidən qənaətli istifadə prinsiplərinə və beynəlxalq qurumların sertifikatlarına uyğunlaşdırılmasının geniş istifadəsi qarşıya məqsəd qoyulub. Ofis binasının birinci mərtəbəsində iaşə obyektləri üçün sahələr ayrılıb.

Ofis binası ətraf mühitin mühafizəsi siyasətinə tam uyğundur və beynəlxalq ekoloji sertifikatlaşdırma təşkilatından (BREEAM) sertifikat alıb. "Ağ Şəhər 2020 - Biznes Mərkəzi" 2014-cü ildə istifadəyə verilmiş birinci Bakı Ağ Şəhər Ofis binasından sonra BREEAM ekoloji sertifikatı alan və "yaşıl bina" standartlarına uyğunluğu təsdiq olunan növbəti binadır.

Qeyd edilib ki, 2030-cu ildən sonra dünya iqliminin temperaturunun 1,5 dərəcə artması proqnozu ilə əlaqədar müvafiq (CRREM) tələblərə uyğunluğu təmin etmək məqsədilə binanın damında günəş panellərinin quraşdırılması nəzərdə tutulub.

Binada eyni zamanda Qarabağ atlarının dünyada təbliği məqsədilə İspaniyanın tanınmış "Lladro" şirkəti tərəfindən hazırlanmış Qarabağ atının farfordan stolüstü heykəli təqdim olunur. Bu heykəl məhdud kolleksiyadır və şirkətin 100-dən çox ölkəsində olan geniş şəbəkəsi vasitəsilə satışa çıxarılacaq.

Diqqətə çatdırıldı ki, binada 150 ofis yerləşir. Biznes nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün burada hər cür şərait var. Binada informasiya texnologiyalarından dayanıqlı istifadə məqsədilə Data Center yaradılıb.

Binanın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradılıb, yerli iqlimə uyğunlaşdırılmış müxtəlif ağaclardan ibarət yaşıllıq zolağı salınıb, yaşı min ildən çox olan nadir zeytun ağacı əkilib.

Ərazidə qoyulmuş "Qarabağ atı" heykəli Qarabağ Atları meydanında yerləşəcək "Qarabağ atları" monumenti kompleksindəki 7 atdan biridir. Təməli dövlətimizin başçısı tərəfindən 2022-ci ilin dekabrında qoyulan kompleks Azərbaycanın Qarabağın 30 illik işğaldan azad edilməsi uğrunda Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Kompleksin yaradılması orijinal əsərləri ilə dünyada məşhur olan amerikalı heykəltaraş Robert Sammers tərəfindən həyata keçirilir.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər







**Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri Azərbaycanın azadlığı uğrunda həlak olan qəhrəman Vətən övladlarının məzarları üzərinə tər güllər düzüb, əziz xatirələrini ehtiramla anıblar.













## Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər



**20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Partiya nümayəndələri tərəfindən "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.




## Küveytli deputatlar Bakıda Şəhidlər xiyabanını ziyarət ediblər



**Yanvarın 22-də Küveyt Dövləti Milli Assambleyasının Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda Şəhidlər xiyabanını ziyarət edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqlar Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad ediblər.

Ziyarət zamanı nümayəndə heyətini Küveytlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Vahid Əhmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*



# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605; 2008, № 12, maddə 1049; 2010, № 4, maddələr 265, 276; 2012, № 6, maddələr 512, 529; 2013, № 1, maddə 18; 2015, № 7, maddə 819; 2016, № 10, maddələr 1601, 1609, № 11, maddə 1754; 2017, № 3, maddə 333; 2018, № 6, maddə 1179; 2019, № 1, maddə 28, № 4, maddə 599, № 5, maddə 797, № 8, maddə 1365; 2021, № 1, maddə 6, № 12, maddə 1298; 2023, № 4, maddə 453, № 8 (I kitab), maddə 1105) aşağıdakı məzmunda 3.1-1-ci və 3.1-2-ci maddələr əlavə edilsin:

"3.1-1. Aşağıdakı mühasibat uçotu subyektlərində mühasibat uçotu elektron formada aparılmalıdır:

3.1-1.1. iri sahibkarlıq subyektlərində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq orta sahibkarlıq subyektlərində;

3.1-1.2. qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və digər belə sazişlər və ya qanunlar, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti haqqında qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərində;

3.1-1.3. illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu Qanuna uyğun olaraq dərc etməli olan publik hüquqi şəxslərdə.

3.1-2. Bu Qanunun 3.1-1.3-cü maddəsi Azərbaycan Respublikasının Mərkəzi Bankına şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3.1-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-1.1-ci maddəsinə uyğun olaraq orta sahibkarlıq subyektləri tərəfindən mühasibat uçotunun elektron formada aparılması aşağıdakı mərhələlərdə həyata keçirilsin:

3.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə xidmətlərini göstərən şəxslər - 2024-cü il yanvarın 1-dən;

3.2. telekommunikasiya xidmətləri göstərən şəxslər - 2024-cü il aprelin 1-dən;

3.3. yanacaqdoldurma məntəqələrində neft və qaz məhsullarının satışı ilə məşğul olan şəxslər - 2024-cü il iyulun 1-dən;

3.4. idman mərc oyunlarının operatoru - 2024-cü il oktyabrın 1-dən;

3.5. bu Fərmanın 3.1-3.4-cü bəndləri ilə əhatə olunmayan digər orta sahibkarlıq subyektləri - 2027-ci il yanvarın 1-dən.

4. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68 (Cild I)) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "2.1.20-ci" sözlərindən sonra ", 3.1-1.1-ci" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 3.1-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 yanvar 2024-cü il*

# Küveyt bir sıra sahələrdə Azərbaycanın təcrübəsindən yararlana bilər



Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Küveyt Ümmət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova bu il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd edildiyini söyləyərək vurğulayıb ki, bu gün ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir. Bildirilib ki, siyasi əlaqələrlə yanaşı, digər sahələrdə də əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var.

Görüşdə qeyd olunub ki, ikitərəfli münasibətlərin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər və görüşlər müstəsna rol oynayır. Bu mənada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ilə Küveytin Əmiri Cabir Əl-Əhməd Əs-Sabah arasında beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdə ölkələrimiz arasında əlaqələrin əsası qoyulub. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ildə Küveytə rəsmi səfəri ilə isə iki ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ başlayıb.

Söhbətdə spiker Sahibə Qafarova ölkələrimiz arasındakı əlaqələrin inkişafında parlamentlərimizin müsbət rolunu vurğulayaraq bildirib ki, parlamentlərimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda yaxşı əməkdaşlıq əlaqələri mövcuddur. Xatırladılıb ki, parlament sədrləri səviyyəsində qarşılıqlı səfərlər baş tutub. Dostluq qrupları arasında qarşılıqlı səfərlərin də müsbət dinamikası mövcuddur. Milli Məclisin Sədri qeyd edib ki, parlamentlərimiz beynəlxalq parlament təşkilatlarında da yaxşı əməkdaşlıq edirlər. Parlamentlərarası İttifaq və İslam Əməkdaşlıq Təşkilatının Parlament Məclisi çərçivəsində mövcud olan əməkdaşlıq Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də uğurla davam etdirilir.

Küveyt Ümmət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyri xalqlarımız arasında çoxlu ortaq cəhətlərin mövcud olduğunu bildirərək, ölkəsinin Azərbaycanı yaxın ölkə hesab etdiyini qeyd edib. O deyib ki, Azərbaycan Küveyt üçün çox mühüm ölkələrdən biridir. Məhəmməd Haif Əl-Muteyri Küveytin ölkələrimiz arasında siyasi əlaqələrlə yanaşı, digər sahələrdə də əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib. O cümlədən, turizm sahəsində müsbət əlaqələr qurulduğunu deyən Məhəmməd Haif Əl-Muteyri Küveytdən Azərbaycana çoxlu sayda turistlərin gəldiyini bildirib.

Azərbaycanın zəngin, böyük nailiyyətlər əldə etmiş ölkə olduğunu deyən dostluq qrupunun rəhbəri vurğulayıb ki, Azərbaycan sabitlik və təhlükəsizlik baxımından dünyada seçilən ölkələrdəndir. O, Azərbaycanda irimiqyaslı layihələrin həyata keçirildiyini və bu layihələrin Azərbaycana sürətli inkişaf vəd etdiyini qeyd edib. O deyib ki, Küveyt bir sıra sahələrdə Azərbaycanın təcrübəsindən yararlana bilər.

Spiker Sahibə Qafarova isə ölkəmizin keçdiyi inkişaf yolu barədə məlumat verərək qeyd edib ki, möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bu gün müstəqil, demokratik, hərtərəfli inkişaf edən və müstəqil xarici siyasət yürüdən ölkədir.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova postmünaqişə dövründə regionda vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi nəhəng quruculuq və bərpa işləri barədə də məlumat verib. O deyib ki, 30 illik işğal dövründə ermənilər bütün dini abidələrimizi, məscidlərimizi dağıdıb, təhqir ediblər. Qarabağ işğaldan azad olunduqdan sonra möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də bu ərazilərdə ermənilər tərəfindən dağıdılan məscidlərin bərpası olmuşdur.

Dostluq qrupunun rəhbəri Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi və suverenliyini bərpa etməsi münasibətilə təbrik edərək deyib ki, Küveytin mövqeyi hər zaman birmənalı olub və Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov BP-nin vitse-prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 20-də BP şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə BP arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, BP tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin önəmi qeyd edilib.

İşğaldan azad olunmuş ərazilərdə günəş-elektrik stansiyasının inşasına dair BP şirkəti ilə birgə aparılan işlər nəzərdən keçirilib.

# Azərbaycanın Baş naziri Əli Əsədov Rusiya Baş nazirinin müavini Aleksey Overçukla görüşüb



Yanvarın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçukla görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticari əməkdaşlığının aktual məsələləri və birgə layihələrin həyata keçirilməsinin gedişatı müzakirə olunub.

Tərəflər Azərbaycan-Rusiya əməkdaşlığının 2024-2026-cı illər üçün əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsinin imzalanmasının əhəmiyyətini qeyd ediblər.

# Bakıda Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi imzalanıb

Yanvarın 22-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Rusiya dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub. Xüsusi qeyd edilib ki, 2022-ci il fevralın 22-də Azərbaycan və Rusiya prezidentləri tərəfindən Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

Söhbət zamanı iki ölkə arasında çox geniş müqavilə-hüquq bazasının mövcud olduğu bildirilib. Dövlət başçılarının tapşırığına uyğun olaraq hazırlanmış 2024-cü ilədək olan dövr üçün Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə Yol xəritələrinin icrasının nəticələri yüksək qiymətləndirilib, bu müsbət təcrübənin davam etdirilməsində qarşılıqlı maraq ifadə olunub.

Bildirilib ki, Yol xəritələrinin icra olunduğu 2018-2023-cü illəri əhatə edən dövrdə ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və bir çox digər istiqamətlərdə əməli addımlar atılıb. Görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı dinamikası təmin edilib, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq ötən il 4,3 milyard ABŞ dollarından çox təşkil edib. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

Görüşdə qarşılıqlı investisiya sahəsində həyata keçirilən uğurlu layihələrin əhəmiyyəti qeyd olunub, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sənaye sahəsinin müxtəlif istiqamətlərində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, bu əməkdaşlığın işğaldan azad olunmuş əraziləri də əhatə etdiyi bildirilib.

Nəqliyyat-logistika sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olunaraq bu istiqamətdə geniş imkanların açıldığı diqqətə çatdırılıb. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətinə toxunularaq dəhlizin tam gücü ilə fəaliyyət göstərməsi üçün birgə səylərin önəmi vurğulanıb.

Görüşdə həmçinin Azərbaycan ilə Rusiya arasında enerji, kənd təsərrüfatı, gömrük-sərhəd infrastrukturunun təkmilləşdirilməsi, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsini imzalayıblar.

Yol Xəritəsi ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası

Yanvarın 22-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini, ölkəmizin baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılması öhdəliyini götürdüyünü, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, habelə Naxçıvan Muxtar Respublikasının "Yaşıl enerji" zonası elan edildiyini bildirib. Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın ətraf mühitin qorunması və qlobal iqlim dəyişmələri sahəsində beynəlxalq səyləri daim dəstəklədiyini və bu prosesə töhfələr verdiyini vurğulayıb. Samir Nuriyev Azərbaycanda iqlim dəyişmələrinə qarşı həyata keçirilən fəaliyyətin beynəlxalq aləmdə təqdir edildiyini və dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasının ölkəmizdə keçirilməsi barədə yekdil qərarın qəbul edilməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizə beynəlxalq səviyyədə olan hörmət və etimadın bariz göstəricisi kimi dəyərləndirildiyini bildirib.

Təşkilat Komitəsinin sədri 2023-cü il dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-la bağlı keçirilmiş müşavirədə hazırlıq işlərinə dərhal başlanılması barədə verdiyi tapşırığa toxunaraq, tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

Samir Nuriyev bu həftə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinin Azərbaycana texniki missiya göndərəcəyini, dialoq şəraitində hazırlıq işlərinin aparılacağını bildirib və COP29-un təşkil edilməsi məqsədilə bütün aidiyyəti sahələrdə ehtiyacların qiymətləndirilməsinin zəruriliyini qeyd edib. Samir Nuriyev eyni zamanda beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaş kimi Azərbaycanın əvvəlki illərdə COP-a evsahibliyi etmiş ölkələrlə təcrübə mübadiləsi apardığını diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-la bağlı verdiyi tapşırıqların icrası istiqamətində görülmüş işlər barədə məlumat verib və ölkəmizin COP29-a hazırlıq prosesində dövlətlər, beynəlxalq təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti, yerli və beynəlxalq media və digər tərəf-müqabilləri ilə konstruktiv əməkdaşlığa və dialoqa hazır olduğunu vurğulayıb.

Sonra Təşkilat Komitəsinin üzvlərinin gündəlikdə duran məsələlər üzrə məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin Katibliyinin, COP29 prezidentinin, baş danışıqçının heyətinin, Əməliyyat şirkətinin fəaliyyəti, COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının yekunlaşdırılması və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# XİN Qoşulmama Hərəkatının Uqandada keçirilmiş 19-cu Zirvə görüşünün nəticələrinə dair məlumat yayıb

Azərbaycan Xarici İşlər Nazirliyi Qoşulmama Hərəkatının Uqandada keçirilmiş 19-cu Zirvə görüşünün nəticələrinə dair məlumat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 15-20-də Uqandanın paytaxtı Kampala şəhərində Qoşulmama Hərəkatının (QH) Dövlət və Hökumət Başçılarının 19-cu Zirvə görüşü keçirilib. Zirvə görüşündə Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Tədbirdə Qoşulmama Hərəkatına üzv və ya müşahidəçi 120-yə yaxın dövlətin, beynəlxalq təşkilatların yüksəksəviyyəli rəsmiləri iştirak ediblər. Tədbirə xüsusi qonaq qismində BMT Baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının 78-ci sessiyasının sədri Denis Fransis, Afrika İttifaqı Komissiyasının Baş katibi Musa Faki Məhəmməd, Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt, Millətlər Birliyi təşkilatının Baş katibi Patrisiya Skotland, həmçinin digər rəsmilər qatılıb və çıxışlar ediblər. Görüşdə həmçinin mənzil-qərargahı Azərbaycanda yerləşən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Uqanda təmsilçisinin çıxışı olub.

Zirvə görüşünün gündəliyinə əsasən, Azərbaycan Prezidenti İlham Əliyevin Hərəkatın sədri qismində fəaliyyətini və təşəbbüslərini əks etdirən videoçarx nümayiş olunub. Sonra xarici işlər naziri Ceyhun Bayramovun Azərbaycanın Hərəkata sədrliyinin yekunlarına dair çıxışı dinlənilib.

Tədbirdə iştirak edən Hərəkata üzv dövlətlərin və beynəlxalq təşkilatların təmsilçiləri, o cümlədən BMT Baş Assambleyasının 78-ci sessiyasının sədri və Millətlər Birliyi təşkilatının Baş katibi ölkəmizin təsisata dördillik uğurlu sədrliyini təqdir edib, Azərbaycan Respublikasının Prezidentinə təşəkkürlərini çatdırıblar.

Çıxışlarda Hərəkata sədrliyimizin böyük bir hissəsinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycanın bu vəzifənin öhdəsindən nəinki uğurla gəldiyi, hətta irəli sürülən müvafiq təşəbbüslər və platformalar ilə Hərəkatın daha da gücləndirilməsinə və təsisatlanmasına töhfə verdiyi vurğulanıb.

Tədbir çərçivəsində Qoşulmama Hərəkatının 19-cu Zirvə görüşünün yekun sənədi qəbul edilib. Sənəddə ölkəmiz üçün bir sıra vacib məqamlar əks olunub.

Belə ki, yekun sənəddə Hərəkata üzv ölkələrin dövlət və hökumət başçıları Azərbaycanın münaqişənin təsirinə məruz qalmış ərazilərdə həyata keçirdiyi bərpa, yenidənqurma və reinteqrasiya fəaliyyətləri ilə bağlı həmrəylik ifadə edib, bu ərazilərdə partlamamış sursat və mina probleminə diqqət çəkərək beynəlxalq yardımın göstərilməsinə çağırış ediblər.

Üzv ölkələr Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülən Qoşulmama Hərəkatının Qadın Platformasının yaradılması təşəbbüsünə dəstək ifadə edib, bu istiqamətdə ilk addım olaraq 2023-cü ilin noyabrında Hərəkatın Bakıda keçirilmiş qadın hüquqlarının gücləndirilməsi ilə bağlı konfransını yüksək qiymətləndiriblər.

Sənəddə Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Xüsusi Sessiyasının çağırılması, peyvəndlərə əlçatanlığın təmin edilməsinin təşviqinin Hərəkat çərçivəsində yeni əməkdaşlıq imkanları yaratdığı qeyd olunub.

Ölkəmizin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına evsahibliyi etmək üçün seçilməsi Hərəkata üzv ölkələr tərəfindən yekdilliklə alqışlanıb.

Sədrliyi dövründə Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının institutlaşdırılması istiqamətində görülmüş işlər, xüsusilə təsisatın Gənclər Təşkilatının və Parlament Şəbəkəsinin fəaliyyəti Zirvə görüşünün yekun sənədində dəstəklənib. İnsan Hüquqları Şurasında Azərbaycanın sədrliyinin nəticəsi kimi ilk dəfə inkişaf hüququ üzrə hüquqi məcburetmə xarakterli sənədin qəbulunu tələb edən qətnamənin Şurada qəbul olunması yüksək qiymətləndirilib.

Zirvə görüşü zamanı Azərbaycanın Hərəkata sədrliyi dövründə təsisatın genişlənməsi istiqamətində atdığı müvafiq addımlar nəticəsində Afrika qitəsindən yeganə üzv olmayan ölkə - Cənubi Sudan Qoşulmama Hərəkatına qoşulub və beləliklə, üzvlərin sayı 121-ə çatıb.

Toplantı çərçivəsində Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi Uqandaya təhvil verib, ölkəmizin bundan sonra da Hərəkatın inkişafı istiqamətində səylərini əsirgəməyəcəyi, xüsusilə təsisata sədrlik üçlüyü çərçivəsində Hərəkatın fəaliyyətinə töhfə verməkdə davam edəcəyi diqqətə çatdırılıb.

# Azərbaycan və Türkiyənin hərb tarixinin, o cümlədən qəhrəmanlıq salnaməsinin araşdırılması müzakirə olunub

Yanvarın 22-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

General-polkovnik Z.Həsənov ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib. Müdafiə naziri qardaş ölkə Türkiyə ilə digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib.

Nazir hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına müsbət təsir etdiyini vurğulayıb.

Professor E.Afyoncu ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası, eləcə də Azərbaycan Ordusunda əldə olunan nailiyyətlərlə əlaqədar müdafiə nazirini təbrik edib. Hərbi təhsil sahəsində həyata keçirilən islahatların bundan sonra da davam etdirilməsinin, eləcə də bu istiqamət üzrə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Görüşdə hər iki ölkənin hərb tarixinin, o cümlədən qəhrəmanlıq salnamələrinin araşdırılmasının vacibliyi xüsusi vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra E.Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların olduğu qeyd edilib.

# Əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var

Yanvarın 22-də Milli Məclisin Küveytlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Küveyt Ümmət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Vahid Əhmədov onları Küveytdə keçirilmiş parlament seçkilərində qələbə qazanmaları münasibətilə təbrik edib, işlərində uğurlar arzulayıb. O, iki dövlət arasında münasibətlərin inkişafından söz açaraq, Azərbaycanın ərəb ölkələri ilə, o cümlədən Küveytlə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini deyib. Dövlət başçılarımız arasında yaxşı münasibətlərin mövcud olduğunu qeyd edən Vahid Əhmədov ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin durmadan inkişaf etməsindən razılıqla danışıb. O, qonaqların bu səfərinin də parlamentlərarası əlaqələrimizin daha da inkişaf etməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Görüşdə iştirak edən Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Hicran Hüseynova, Eldar Quliyev, Əli Məsimli və Ceyhun Məmmədov iki ölkə arasında əlaqələrin tarixi və gələcək perspektivləri barədə fikirlərini bölüşüblər.

Küveyt Ümmət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyri qonaqpərvərliyə və səmimi söhbətə görə minnətdarlığını bildirib. O, Küveytlə Azərbaycan arasında bir çox sahələrdə, o cümlədən təhsil və səhiyyə sahələrində yaxşı əməkdaşlığın qurulduğunu və bu əməkdaşlığın genişləndirilməsi üçün daha böyük imkanlar olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafı, iqtisadiyyat, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın daha da gücləndirilməsi, Azərbaycanın işğaldan azad etdiyi ərazilərində apardığı bərpa-quruculuq işləri, İslam həmrəyliyi və digər mövzularda fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Elm və təhsil komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 22-də Milli Məclisin Elm və təhsil komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Bəxtiyar Əliyev gündəliyə 3 məsələnin - Elm və təhsil komitəsinin 2023-cü ilin payız sessiyası ərzində fəaliyyəti barədə hesabatın, qarşıdakı sessiya üçün iş planının və bir qanun layihəsinin daxil edildiyini bildirib.

2023-cü ilin ölkəmiz üçün müstəsna əhəmiyyətə malik uğurlu hadisələrlə zəngin olduğunu deyən Bəxtiyar Əliyev ötən ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbirlərin həm ölkə daxilində, həm də xaricində yüksək səviyyədə keçirilməsindən, deputatların bu tədbirlərdə fəal iştirakından bəhs edib. O, ötən il ölkəmizin bütün ərazisində suverenliyinin tam təmin edilməsinin Azərbaycan tarixində və dövlətçiliyində müstəsna əhəmiyyətindən danışıb.

Komitə sədri 2023-cü ilin payız sessiyası ərzində komitədə görülən işlər barədə hesabatı təqdim edərkən bildirib ki, sessiya dövründə komitənin 9 iclası keçirilib, iclaslarda 15 məsələ müzakirə olunub. Komitəyə daxil olan müraciətlər barədə məlumat verən komitə sədri bildirib ki, həm daxil olan ərizə və məktublarda, həm də komitədə keçirilən vətəndaş qəbullarında vətəndaşların müraciətlərinə diqqətlə yanaşılıb. Həmçinin komitə sədri və üzvləri seçiciləri ilə bir sıra görüşlər keçiriblər, cəmiyyətin həssas qrupları, şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlanıblar.

Komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planını təqdim edərkən Bəxtiyar Əliyev qeyd edib ki, yaz sessiyası dövründə ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcək. Komitə sədri bu seçkilərin ölkəmiz üçün əhəmiyyətini, xalqımız və dövlətimiz qarşısında açdığı yeni imkanları diqqətə çatdırıb. Bildirilib ki, iş planına "Ali təhsil haqqında" qanun layihəsinin, həmçinin qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi və digər məsələlər daxil edilib.

İclasda müzakirəyə çıxarılan Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirilib ki, sənəddə "Təhsil haqqında" Qanuna təklif edilən dəyişiklikdə məişət zorakılığının qarşısının alınması və zorakılığa yol verilməməsinin təşviqi məqsədilə təhsilin məzmununa və təşkilinə dair ümumi tələblərin dairəsinə dərsdənkənar məşğələlər zamanı təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzuların tədrisinin daxil edilməsi nəzərdə tutulub.

Gündəlikdəki məsələlərlə bağlı Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı, komitənin üzvləri İsa Həbibbəyli, Ceyhun Məmmədov, Kamilə Əliyeva və Etibar Əliyev çıxış edərək fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Elm və təhsil komitəsinin 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul sayılıb, komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib, gündəlikdəki qanun layihəsi isə ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*










# Xalq öz qəhrəmanlarını unutmur

Şəhidlər xiyabanı yenə qırmızı qərənfillərə bürünüb. 20 Yanvar faciəsinin otuz dördüncü ildönümündə xalq öz qəhrəmanlarının nurlu xatirəsini anmaq üçün bura üz tutur. Gələnlərin ardı-arası kəsilmir.

Ziyarətçilər arasında bütün yaş qruplarından, müxtəlif kateqoriyadan olan insanlar var. Bu fərqli insanları bir-birinə bənzədən simalarında əks olunmuş ifadədir. Şəhid məzarları önündən keçən hər kəsin üzündən kədərlə yanaşı, iftixar hissləri də oxunur. Otuz dörd ildir ki, Azərbaycan xalqı 20 Yanvar şəhidlərini belə yad edir...

Xalqımızın yaddaşına qəhrəmanlıq nümunəsi kimi əbədi həkk olunan Qanlı Yanvar qurbanlarının xatirəsini ehtiramla yad edən paytaxt sakini Zemfira İsmayılova deyir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin göstərişi ilə sovet qoşun hissələri respublikamıza xalqımızın azadlıq arzusunu boğmaq üçün gəlmişdi: "Yaxşı bilirdilər ki, silahlı müqavimətlə qarşılaşmayacaqlar, əhali silahsızdır və azərbaycanlıların yalnız bir arzuları var, ölkənin müstəqil olmasını istəyirlər. Bu yolda xalqımızın övladları o müdhiş gündə - Qanlı Yanvarda şəhid oldular. Ancaq faciəni törədənlər Azərbaycan xalqının qəhrəmanlıq ruhunu sındıra bilmədilər. Odur ki, 20 Yanvar hüznlə qürurun bir arada yaşandığı gündür".







Şəhidlər xiyabanını ziyarət edən Bakı şəhər sakini Bəxtiyar Əliyev vurğulayır ki, 20 Yanvar faciəsinin törədilməsinə qol çəkənlər beynəlxalq hüquq normalarını və ölkə qanunlarını tapdaladılar və özlərinin əsl simlarını - cinayətkarlıqlarını nümayiş etdirdilər: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə Bakıda dəhşətli qətliam törədildi. İmperiya cəlladları paytaxtın küçələrinə, evlərinə ölüm saçdılar. Uşaqları, gəncləri, qocaları atəşə tutdular. Yaralıların xəstəxanalara çatdırılmaması üçün təcili yardım maşınlarını güllələbaran etdilər. Hətta onların müayinə olunmalarına, cərrahiyyə əməliyyatı edilmələrinə mane olmaq üçün xəstəxanaların işıqlarını belə söndürdülər. Bütün bunlar göstərdi ki, SSRİ rəhbərliyinin məqsədi 20 Yanvar faciəsi zamanı daha çox soydaşımızı qətlə yetirmək idi". Bəxtiyar Əliyev qeyd edir ki, Qanlı Yanvar hadisələrində Azərbaycan xalqının birliyi, yenilməz iradəsi imperiyanın top-tüfənginə qalib gəldi.

Ucalarda üçrəngli bayrağımız dalğalanır. Şəhidlər xiyabanına gələnlərin də çoxunun çiyinlərində, ya da əllərində Azərbaycan bayrağı var. Bu mənzərə göstərir ki, şəhidlərimizin ən böyük arzuları həyata keçib. Onların canlarından çox sevdikləri Azərbaycan azad, müstəqil dövlətdir.

Şəhidlərin ziyarətinə yalnız paytaxtımızın sakinləri deyil, şəhərimizin qonaqları da gəlirlər. Onlardan biri - Ucar rayon sakini Xaləddin Qafarov deyir ki, dövlət müstəqilliyimizin rəmzi olan bu bayrağın yetmiş il sonra yenidən dalğalanması, Azərbaycanın imperiya zəncirlərini qıraraq azadlığına qovuşması asan olmadı, xalqımız çox ağır günlər yaşadı: "1980-ci illərin sonlarında SSRİ rəhbərliyi imperiyanın dağılmasının qarşısını almaq üçün dəhşətli planlar hazırladı. 20 Yanvar faciəsi məhz müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının iradəsini qırmaq üçün törədildi. Ancaq baş verən hadisələr göstərdi ki, o qanlı planları quranlar xalqımızı tanımamışdılar. Təpədən-dırnağadək silanlanmış, ağır texnikalarla, tanklarla gəlmiş sovet qoşun hissələri əliyalın, amma iradəsi, əzmi ilə yenilməz olan insanlarla qarşılaşdılar. O günlərdə ölümə meydan oxuyan soydaşlarımız Vətən sevgisinin candan əziz olduğunu bütün dünyaya göstərdilər".

1980-ci illərin sonlarında meydanlara çıxan xalq Azərbaycanın imperiya buxovlarından qurtulmasını, azadlığını tələb edirdi. Həmin günlərdə SSRİ rəhbərliyinin fitnəsi və işğalçı ermənilərin öz məkrli planlarını işə salaraq respublikamıza qarşı yenidən ərazi iddiaları irəli sürmələri nəticəsində Qarabağ münaqişə ocağına çevrilirdi.

Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərini Şəhidlər xiyabanında anmaq üçün Şəkidən gəlmiş Rafiq Abdullayev Qanlı Şənbə hadisələrindən öncəki həmin günləri xatırlayaraq deyir: "Azərbaycan xalqı yetmiş il idi ki, dövlətinin müstəqilliyinə həsrət qalmışdı. Xalqın azadlıq tələbi Sovet İttifaqı rəhbərlərini qorxuya saldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiyanın mərkəzi hakimiyyəti çox ağır cinayətlərə əl atdı. Bakı şəhərində əhali xəbərdar edilmədən fövqəladə vəziyyətin tətbiqinə başlanıldı. SSRİ rəhbərliyinin tapşırığı ilə həyata keçirilən hərbi təcavüz nəticəsində o gecə Bakıda dinc, günahsız insanlara amansızlıqla divan tutuldu. Yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü". Rafiq Abdullayev qeyd edir ki, 1990-cı ilin Qanlı Yanvarında Azərbaycan xalqının sinəsinə çalın-çarpaz dağ çəkənlər, əslində, məqsədlərinə çatmadılar. Çünki niyyətləri bu xalqın gözünü qorxutmaq, xof yaradaraq üz tutduğu azadlıq yolundan döndərmək idi. Ancaq qarşılarında dərdlərinə yas tuta-tuta, göz yaşlarına boğula-boğula ayağa qalxmağı bacaran və daha da güclənən bir xalq gördülər.

Şəhidlər xiyabanını ziyarət edən Ağcabədi rayon sakini Zeynəb Seyidova gəncdir. O günlərin şahidi olmasa da, xalqının qəhrəmanlıq tarixini yaxşı bilir. Deyir ki, 20 Yanvar tariximizin şəhid qanları ilə yazılmış şanlı səhifələrindən biridir: "Bu gün artıq suverenliyini tam bərpa etmiş və gündən-günə daha da güclənən bir ölkədə yaşayırıq. Bilirik ki, böyük zəfərimizə çətinliklə nail olmuşuq. Xalqımızın qəhrəman övladları bu yolda canlarından keçiblər. Bugünkü müasir Azərbaycana, müstəqilliyimizə görə şəhidlərimizə borcluyuq".

Müqəddəs Şəhidlər xiyabanını ziyarət edənlər arasında hər yaşda olan insanlar var. Onlar 20 Yanvar şəhidlərinin məzarları önünə tər qərənfillər düzürlər.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Gəncə

Anım mərasimi şəhərin Şəhidlər xiyabanında təşkil olunmuşdur. Mərasimdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, general-mayor Vasif Kazımov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki vitse-konsulu Şota Doridze, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, məhkəmə sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, universitet rektorları, şəhərdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri və şəhid ailələri iştirak etmişlər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş hərbçilərin adları əks olunan abidə ziyarət edilmiş, önünə gül dəstələri düzülmüşdür. Niyazi Bayramov və Vasif Kazımov "Əbədi məşəl" abidəsi önünə əklil qoyduqdan sonra və hərbi orkestrin ifasında Dövlət himni səsləndirilmişdir. Saat 12:00-da şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Mərasimdən sonra Niyazi Bayramov rəsmilərlə birgə Gəncənin 20 Yanvar şəhidi Valeri Boqdanovun, Vətən uğrunda canlarını fəda edən digər şəhidlərin məzarlarını ziyarət etmişlər.

Həmin gün Gəncədəki Şah Abbas cümə məscidində, Aleksandr Nevski rus pravoslav kilsəsində və Yəhudi Dini İcmasında 20 Yanvar şəhidlərinin ruhuna dualar oxunmuş, "20 Yanvar" abidəsi ziyarət olunmuşdur.



## Lənkəran

Yanvarın 20-də səhər saatlarında Ümumxalq Hüzn Günü ilə bağlı Lənkəran şəhər rəhbərliyi, rayonun hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, ictimaiyyətin nümayəndələri Şəhidlər Abidə Kompleksini ziyarət edərək önünə və şəhid məzarlarına tər güllər düzmüşlər.

Sonra ŞİH-in başçısı T.Qaraşov şəhid ailələri və müharibə əlilləri ilə görüşərək onların qayğıları ilə maraqlanmışdır.

Ümumxalq Hüzn Günü ilə əlaqədar mədəniyyət, təhsil, səhiyyə və digər qurumlarda silsilə tədbirlər, kitab və rəsm sərgiləri keçirilmiş, 20 Yanvar şəhidlərinin qəhrəmanlıqları barədə tamaşalar nümayiş olunmuşdur. Gün ərzində ictimaiyyət tərəfindən Şəhidlər Abidə Kompleksi ziyarət olunmuşdur.







## Ağstafa

Xalqımızın müstəqillik, milli-azadlıq və zəfər yolunun başlanğıcı kimi tarixə həkk olunan 20 Yanvar faciəsinin 34-cü ildönümü Ağstafada da ehtiramla qeyd olunmuşdur.

Ümumxalq Hüzn Günündə RİH-in və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, idarə, müəssisə və təşkilatların kollektivləri, rayon ərazisində yerləşən hərbi hissələrin əsgər heyəti, eləcə də ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanına toplaşmışdılar. Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov memorial xatirə abidəsi önünə əklil qoyduqdan sonra tədbir iştirakçıları şəhidlərin məzarlarını ziyarət etmişlər.

Həmin gün Ağstafa rayonunun Vurğun qəsəbəsindən olan 20 Yanvar şəhidi Habil Əzizovun və digər ağstafalı şəhidlərin də məzarları ziyarət olunmuşdur.





## Goranboy

20 yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Goranboyun Şəhidlər xiyabanında ümumrayon tədbiri keçirilmişdir. Tədbirdə rayon rəhbərliyi, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

İştirakçılar şəhidlərimizin xatirəsini ehtiramla anaraq ruhlarına dualar oxumuşlar. Diqqətə çatdırılmışdır ki, 20 Yanvar şəhidləri arasında Goranboy rayonunun Muzdurlar kəndindən Kərimov İlqar İsa oğlu da olmuşdur. Anım mərasimində o da qeyd olunmuşdur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilmiş, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilmişdir. Xüsusilə Bakıda böyük vəhşilik törədilmişdir. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbçilər 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində daha 21 nəfər qətlə yetirilmişdir. Beləliklə, Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmışdır. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili tibbi yardım işçiləri və milis nəfərləri də olmuşdur.

Bildirilmişdir ki, həmin ağır günlərdə Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirmiş, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirmişdir. 1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə Milli Məclisdə ilk dəfə hüquqi-siyasi qiymət verilmişdir.

## Astara

20 Yanvar faciəsindən 34 il keçir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiya ordusu Bakı şəhərinə soxularaq heç bir xəbərdarlıq etmədən dinc əhalini güllələbaran etdilər.

Həmin dəhşətli terror gecəsində cəlladlar qarşılarına çıxan uşağa, qocaya, qadına rəhm etmədən insanları küçələrdə, hətta avtobusda gedərkən, evlərində belə, qətlə yetirdilər, yaralıları aparmağa gələn təcili yardım maşınlarını gülləyə tutdular. 20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən Azərbaycanın dahi oğlu Heydər Əliyev oldu. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında olmasına baxmayaraq, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq hadisələrdən dərhal sonra - yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, qanlı təcavüzə etirazını bildirərək faciəni törədənləri, şəxsən Mixail Qorbaçovu kəskin ittiham edərək qoşunların Bakıdan dərhal çıxarılmasını tələb etdi. Ümummilli Lider Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət oldu.

Yanvarın 20-də Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Milli Məclisin deputatı Rəşad Mahmudov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhid ailələri, qazilər, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri Şəhidlərin Xatirə Kompleksini ziyarət edərək Vətənin müstəqilliyi uğrunda şəhid olanların xatirəsini ehtiramla yad etmiş, xatirə lövhələrinin önünə qərənfillər düzmüşlər.

Saat 12:00-da rayon ərazisində bayraqlar endirilmiş, nəqliyyatın hərəkəti dayandırılaraq şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

## Zaqatala

20 Yanvar hadisəsindən 34 il keçməsinə baxmayaraq, xalqımız o dəhşətli faciəni unutmur.

Azərbaycan tarixinin həm də qəhrəmanlıq səhifəsi olan 20 Yanvar Zaqatalada da qeyd edilmişdir. Həmin gün yenidən qurulan Şəhidlərin Xatirə Kompleksinin açılışı olmuşdur. Sonra rayon rəhbərliyi, şəhidlərin ailə üzvləri və ictimaiyyətin nümayəndələri torpaq uğrunda haqq savaşında canından keçən şəhidlərimizin xatirəsini ehtiramla yad etmiş, abidənin önünə tər qərənfillər düzmüşlər. İctimaiyyətin nümayəndələri çıxış edərək vətənin azadlığı uğrunda canından keçən qəhrəman oğulların igidliklərindən danışmışlar. Saat 12:00-da şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunmuşdur.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 30

QƏRAR

Bakı şəhəri, 19 yanvar 2024-cü il

## Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun adlarının dəyişdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının:

1.1. Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılsın;

1.2. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Arxeologiya və Antropologiya İnstitutu adlandırılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda 2.2-ci və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu;

2.3. Arxeologiya və Antropologiya İnstitutu;".

3. Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 31

QƏRAR

Bakı şəhəri, 19 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 742-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-2-ci maddəsinə əsasən əmək pensiyasının təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. 3.2-ci bəndin birinci cümləsinə "aradan qaldırılması" sözlərindən sonra "(bu Qaydanın 2.9-cu bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 32

QƏRAR

Bakı şəhəri, 19 yanvar 2024-cü il

## "Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 245 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adı və 1-ci hissə üzrə:

1.1. "Olimpiya" sözündən sonra ", Paralimpiya və qeyri-olimpiya" sözləri əlavə edilsin;

1.2. birinci halda "və" sözü vergül işarəsi ilə və "Kubok yarışlarında" sözləri "birinciliklərində" sözü ilə əvəz edilsin.

2. 2-ci hissə ləğv edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar" yeni redaksiyada verilsin (əlavə olunur).

4. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 19 yanvar tarixli 32 nömrəli Qərarı ilə yeni redaksiyada verilmişdir.*

### Olimpiya, Paralimpiya və qeyri-olimpiya proqramına daxil olan idman növləri üzrə Dünya, Avropa çempionatları və birinciliklərində ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar

| Sıra №-si | Yarışın növü | Tutduğu yer və mükafatın məbləği (manatla) I | II | III |
|---|---|---|---|---|
| | **Olimpiya proqramına daxil olan idman növləri üzrə** | | | |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | **Dünya Çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 20000 | 18000 | 15000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 14000 | 12600 | 10500 |
| 2. | **Avropa Çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 15000 | 13000 | 10000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 10500 | 9100 | 7000 |
| 3. | **Gənclər və yeniyetmələr arasında Dünya birinciliyi, Dünya Çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 10000 | 8000 | 5000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 7000 | 5600 | 3500 |
| 4. | **Gənclər və yeniyetmələr arasında Avropa birinciliyi, Avropa çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 8000 | 5000 | 3000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 5600 | 3500 | 2100 |
| | **Paralimpiya və qeyri-olimpiya proqramına daxil olan idman növləri üzrə** | | | |
| **Sıra №-si** | **Yarışın növü** | **Tutduğu yer və mükafatın məbləği (manatla) I** | **II** | **III** |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | **Dünya Çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 5000 | 4000 | 3000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 3500 | 2800 | 2100 |
| 2. | **Avropa Çempionatı (fərdi və komanda hesabında)** | | | |
| | idmançıların hər biri | 4000 | 3000 | 2000 |
| | şəxsi məşqçi və baş məşqçi (hər biri) - idmançıların mükafat məbləğinin 70 faizi | 2800 | 2100 | 1400 |

***Qeydlər:***

1. Qeyri-olimpiya proqramına daxil olan idman növləri üzrə keçirilən Dünya çempionatında azı 20 ölkə komandası və hər fərdi proqramda azı 12 ölkənin idmançısı, Avropa çempionatında isə azı 16 ölkə komandası və hər fərdi proqramda azı 10 ölkənin idmançısı iştirak etməlidir.

2. Beynəlxalq kompleks yarışlarında: Ümumdünya Şahmat Olimpiadası, İslam Həmrəyliyi Oyunları və Avropa Oyunları yarışlarında mükafat yerləri tutan idmançıların və onların məşqçilərinin mükafatlandırılması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı olmadığı təqdirdə, mükafatlandırılma Olimpiya proqramına daxil olan idman növləri üzrə cədvəlin 2-ci hissəsinə, Tələbələrin Ümumdünya Universiadası və Dünya Oyunları yarışlarında mükafat yerləri tutan idmançıların və onların məşqçilərinin mükafatlandırılması həmin cədvəlin 3-cü hissəsinə, Gənclərin Olimpiya Festivalı yarışlarında mükafat yerləri tutan idmançıların və onların məşqçilərinin mükafatlandırılması isə həmin cədvəlin 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 33

QƏRAR

Bakı şəhəri, 19 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli 258 nömrəli, "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 9 avqust tarixli 1009 nömrəli, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2236 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1429 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın 1.7-1-ci bəndində "elmin müxtəlif sahələri" sözləri "fəaliyyət istiqamətləri" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 35

QƏRAR

Bakı şəhəri, 22 yanvar 2024-cü il

## "Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 305 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Preambulada "2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 15-ci bəndinə uyğun olaraq və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq" sözləri "2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən" sözləri ilə əvəz edilsin.

3. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin kollegiya üzvlərinin sayı 11 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının elm və təhsil naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 36

QƏRAR

Bakı şəhəri, 22 yanvar 2024-cü il

## "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2345 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 385 nömrəli və 2022-ci il 15 mart tarixli 88 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada verilsin (əlavə olunur, məxfi).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə yanvarın 20-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Komissiyaya daxil olmuş müraciətə baxılıb.

Beynəlxalq müşahidə missiyası təmsilçilərinin, habelə media nümayəndələrinin iştirak etdiyi iclasda əvvəlcə həyata keçirilən araşdırılma prosesi barədə ətraflı məlumat verilib. Bildirilib ki, daxil ol-



muş müraciətlə əlaqədar vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvü tərəfindən hərtərəfli və obyektiv araşdırma aparılıb, müvafiq rəy verilib və seçki qanunvericiliyində nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılaraq Komissiya üzvlərinin müzakirəsinə təqdim olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında aparılan geniş müzakirələrdən sonra müraciətin aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsinə qərar verilib.

### QƏRAR № 6/25

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-cü il tarixli 1 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimli Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizədliyinin müdafiəsi üçün imza toplanması zamanı tərəfdarları olan şəxslərin müqavimətlə üzləşdiklərini, Sumqayıt və Gəncədə müxtəlif şəxslər tərəfindən imza vərəqələrinin götürüldüyünü və digər qanun pozuntularının baş verdiyini iddia etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətdə Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əməllərin əlamətlərinin olması ehtimalına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Bununla əlaqədar Seçki Məcəlləsinin 112-1.5-ci və 112-1.6.1-ci maddələrinə uyğun olaraq M.Ə.Mütəllimlinin müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-cü il tarixli 1 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*20.01.2024*

# "Müşahidəçilərin hüquq və vəzifələri" mövzusunda silsilə təlim-seminarlar davam edir

Növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tərəfindən təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq Ombudsman Aparatı tərəfindən "Müşahidəçilərin hüquq və vəzifələri" mövzusunda canlı və onlayn qaydada təlim-seminarları davam etdirilir.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, növbəti belə təlim-seminar, ombudsmanın Regional mərkəzlərinin və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları üçün onlayn qaydada keçirilib.

Təlim zamanı Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı seçkiyə hazırlıq məqsədilə maarifləndirmə tədbirlərinin paytaxt və regionları əhatə etdiyini bildirib. O, seçki prosesində müşahidəçilik institutunun əhəmiyyəti barədə məlumat verib, bu institutun seçki prosesi zamanı yarana biləcək çatışmazlıqların aradan qaldırılmasındakı rolunun əhəmiyyətinə toxunub.

Sonra Ombudsman Aparatının Beynəlxalq əməkdaşlıq və vətəndaş cəmiyyəti institutları əməkdaşlıq şöbəsinin sektor müdiri Mahir Məmmədov "Müşahidəçilərin hüquq və vəzifələri" mövzusunda onlayn təlim keçib.

Təlimdə müşahidə aparılması qaydaları, müşahidəçilərin onların hüquqları və vəzifələri, seçki qanunvericiliyinin pozulmasına görə məsuliyyət və qanunvericilikdə təsbit olunmuş digər məsələlərlə bağlı məlumat verilib.

Təlim zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Seçki sahəsində bilik və bacarıqların təkmilləşdirilməsi məqsədilə növbəti treninqlər Binəqədidə keçirilib

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təsdiqlənmiş Təqvim Planına əsasən, 8 saylı Binəqədi birinci seçki dairəsi dairə və məntəqə seçki komissiyalarının bütün üzvlərinin iştirakı ilə onların hazırlığının artırılması, seçki sahəsində bilik, bacarıq və işgüzar vərdişlərinin təkmilləşdirilməsi, xüsusilə protokolların düzgün doldurulması məqsədilə yanvarın 22-də 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasında növbəti treninq təşkil olunub.

AZƏRTAC xəbər verir ki, treninqdə çıxış edən 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının sədri Natiq Əliyev seçki dairəsi üzrə hazırda 37 seçki məntəqəsinin fəaliyyət göstərdiyini bildirib. Deyib ki, seçki qanunvericiliyinə əsasən, bir seçki məntəqəsinin səsverməyə azı 5 gün qalmış seçki dairəsinin ərazisində yerləşən 11 saylı Ciddi Rejimli Cəzaçəkmə Müəssisəsində yaradılması nəzərdə tutulub. Hazırda dairə üzrə seçici sayı 49 min nəfərdən çoxdur.

Vurğulanıb ki, Mərkəzi Seçki Komissiyası tərəfindən seçki məntəqələri seçkiyə aid bütün zəruri əşyalarla təmin olunur.

O əlavə edib ki, seçki dairəsi üzrə sağlamlıq imkanları məhdud olan seçicilərin səs vermələri üçün şəraitin yaradılması məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən seçki məntəqələrinin girişlərində pandusların quraşdırılması nəzərdə tutulub.

"Namizədlərin təbliğat və təşviqat üçün seçki dairəsi üzrə bütün seçki məntəqələrinə yaxın ərazilərdə təşviqat lövhələri quraşdırılıb. Eyni zamanda əvvəlki illərdə olduğu kimi, seçki dairəsinin ərazisində təbliğat məqsədilə bir qapalı və bir açıq yer müəyyən edilib. Seçicilərin seçki məntəqələrinə rahat, maneəsiz gələrək səs vermələri məqsədilə seçki dairəsi üzrə bir neçə seçki məntəqəsinin dislokasiyasında əlavə və dəyişikliklər aparılıb. Əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də seçki dairəsi üzrə 10 seçki məntəqəsində veb-kameraların quraşdırılması nəzərdə tutulub.

Seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyasının (DSK) nəzdində 3 nəfərdən ibarət ekspert qrupu yaradılıb. Bu günədək seçki dairəsi üzrə ümumilikdə 400-dən çox müşahidəçi qeydə alınıb", - deyə Natiq Əliyev vurğulayıb.

Treninqi aparan 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının katibi Məhəmməd Əliyarov iştirakçılara MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, səsvermə günü məntəqənin açılması və s. barədə məlumat verib. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası da təqdim edilib.

Treninqdə dairə və məntəqə seçki komissiyalarının üzvlərinin sualları da cavablandırılıb.

Qeyd edək ki, treninqlər 9 saylı Binəqədi ikinci, 10 saylı Binəqədi üçüncü, 11 saylı Binəqədi-Qaradağ seçki dairələrində də keçirilir.

# Ermənistan bu gün öhdəliklərini yerinə yetirməsə, sabah daha ağır şərtlərlə üzləşəcək

ATƏT-in Minsk qrupuna daxil olan həmsədr ölkələrinin uzun illər Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində göstərdiyi səylər heç bir nəticə vermədi. Çünki həmsədr ölkələr danışıqlar prosesində işğalçı Ermənistanı dəstəkləyirdilər.

Bundan ayağı yer alan Ermənistan ordusu 27 sentyabr 2020-ci ildə ölkəmizin yeni ərazilərini işğal etmək məqsədilə mövqelərimiz üzərinə hücuma keçdi. İkinci Qarabağ müharibəsi başladı. Vətən müharibəsi ordumuzun və xalqımızın qələbəsi ilə başa çatdı. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların 30 ilə yaxın həll edə bilmədiyini 44 gün ərzində yerinə yetirdi. Ermənistan müharibədə məğlub olduğunu üçtərəfli Bəyanata imza atmaqla təsdiq etdi. Üçtərəfli Bəyanatı imzalamaqla Ermənistan həm də üzərinə müəyyən öhdəliklər götürdü. Təəssüflər olsun ki, ötən illər ərzində Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Bu dövlətin rəsmilərinin hərəkətlərindən hiss olunur ki, heç yerinə yetirmək fikirləri də yoxdur.

44 günlük Vətən müharibəsindən əvvəl Ermənistanla Azərbaycan arasında danışıqlar Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində aparılırdı. İkinci Qarabağ müharibəsindən sonra isə danışıqlar Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün keçirilir. Danışıqların əsas məqsədi tezliklə regionda sülhə nail olmaq, iki ölkə arasında olan mübahisəli məsələlərə son qoymaqdır.

Amma ənənəsinə sadiq qalan Ermənistan yenə də üçtərəfli Bəyanatın müddəalarından irəli gələn məsələlərin həlli istiqamətində aparılan danışıqlardan müxtəlif bəhanələrlə yayınır. Rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünü detallı şəkildə tanımaq mərhələsindən irəli getmək istəmir. Ləngərli gedişlərdən, danışıqlar proseslərindən yayınmağından hiss olunur ki, Ermənistan Azərbaycanla sülh müqaviləsini Rusiyanın diktə etdiyi şərtlərlə imzalamaq fikrində deyil. Ona görə danışıqlar prosesinə Avropa Şurasını, eləcə də başqa nüfuzlu təşkilat və ölkələri cəlb etməyə çalışır. Ermənistan danışıqlar prosesində daim ona dəstək verən Fransanı yanında görmək istəyir. Bu dövlətin Qərb ölkələrinə yarınmaq hərəkətləri isə Rusiyada qıcıq yaradır.

Bütün bunlarla yanaşı, Ermənistanın 2022-ci ilin oktyabrında Praqada səsləndirdiyi, 2023-cü ildə Brüssel görüşlərində təkrar etdiyi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tanınması, 1991-ci il Almatı Bəyannaməsinə sadiqlik kimi addımlar mühüm əhəmiyyət kəsb edir. Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə dəfə daxili auditoriyası qarşısında ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tanıdığını açıq şəkildə ifadə edib. N.Paşinyanın Qarabağı Azərbaycan



ərazisi kimi tanıdığını bəyan etməsi isə açıq qalmış suallara yetərli cavab verir. Brüssel görüşündən sonra mətbuata açıqlamasında Aİ Şurasının Prezidenti Şarl Mişel də Ermənistan və Azərbaycan liderlərinin Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədiklərini bildirib.

Müxtəlif beynəlxalq təşkilatlarda səsləndirilən bu və ya başqa fikirlər iki ölkə arasında sülhyaratma prosesində yeni reallıqlar yaratdığını açıq şəkildə göstərir. Qalib Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla münasibətlərin yenidən qurulması üçün beş baza prinsiplərini, sülh müqaviləsi təklifini, eləcə də sərhədlərin delimitasiyası təşəbbüsünü irəli sürən tərəfdir və bu istiqamətlərdə bütün ilkin sənədlərin müəllifidir. Azərbaycan sülh prosesinin uğurla nəticələnməsi istiqamətində əməli addımlar atır, üçtərəfli Bəyanata daim sadiqlik nümayiş etdirir. Ermənistan tərəfi bu tarixi sənədin bir çox müddəalarını yerinə yetirməyib. Bunun qarşılığında Rusiya tərəfi də Ermənistanın öhdəlikləri icra etməməsinə yumşaq şəkildə desək, göz yumub.

Amma deyəsən, Rusiyada həqiqətin üstünü örtmüş buzlar yavaş-yavaş əriyir. Bunu biz Rusiyanın xarici işlər naziri Sergey Lavrovun 2023-cü ilin yekunlarına dair TASS-a verdiyi eksklüziv müsahibəsində gördük. Müsahibəsi zamanı S.Lavrov Azərbaycan-Ermənistan arasında aparılan sülh danışıqlarına toxunaraq deyib: "Qərb dövlətləri Ermənistana və bütövlükdə Cənubi Qafqaza sülh və sabitlik gətirməyə çalışmır, onların vəzifəsi Moskvanı sıxışdırıb aradan çıxarmaqdır. Ermənistan indi bir sıra problemlərlə üz-üzədir. Üstəlik, Qərb oyunçularının köməyi ilə onları dayandırmaq mümkün olmayacaq. ABŞ və Aİ Rusiyadan fərqli olaraq, respublikaya və bütövlükdə Cənubi Qafqaza sülh və sabitlik gətirməyə çalışmır. Onların vəzifəsi tamamilə fərqlidir - Moskvanı və digər regional gücləri sıxışdırıb çıxarmaq, Balkanlar, Yaxın Şərq və Ukraynadan sonra yeni gərginlik mənbəyi yaratmaqdır.

Fransanın danışıqlar prosesinə qatılmağa ciddi cəhd etməsinə münasibət bildirən Rusiyanın baş diplomatı N.Paşinyanı məyus qoyaraq vurğulayıb ki, üçtərəfli Bəyanat Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanıb. Orada Fransa prezidenti Emmanuel Makronun imzası yoxdur.

Azərbaycan daim sülhə sadiqdir. Ölkəmiz bunu beynəlxalq təşkilatlarla aparılan bütün danışıqlar prosesində regiona əmin-amanlıq gətirəcək sülh təklifləri və reallığa hesablanmış qətiyyətli addımları ilə sübut etmişdir. Sülh danışıqlarından yayınan Ermənistan birgə yaşayış üçün tarixi imkanın yaratdığı mövcud şəraiti dərindən anlamalı, layiqincə qiymətləndirməli və tez bir zamanda üçtərəfli Bəyanatın tələblərini yerinə yetirməlidir. Əks-təqdirdə rəsmi İrəvan daha ağır şərtlərlə üzləşəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Azərbaycan seçicisi iradəsini ifadə etməkdə sərbəstdir

### Prezident seçkilərindən sonra ölkəmizi daha parlaq gələcək gözləyir

"Bu il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində bir ilk yaşanacaq. Müstəqil Azərbaycan tarixində seçkilər ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçiriləcək. Səsvermə prosesinin həm də işğaldan azad edilmiş ərazilərdə təşkil edilməsi bu seçkini əlamətdar edən hadisələrdəndir. Ona görə də növbədənkənar prezident seçkiləri böyük ictimai-siyasi məna kəsb edir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, seçkiləri daha erkən vaxta təyin etmək xalqa etimadın ən ali göstəricisidir: "Bu, həm də xalqın seçdiyi layiqli namizədə səs verməsi üçün bir fürsətdir. Mən tam əminliklə deyirəm ki, xalq ən doğru qərarı verəcək. Fevralın 7-də Azərbaycan xalqının müdrik olduğu bir daha sübuta yetiriləcək".

Deputat söyləyib ki, bu gün ölkəmizdə suverenliyimiz möhkəmlənib, iqtisadi müstəqilliyə nail olunub, ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, beynəlxalq hüquqla tanınan bütün ərazilərimizdə konstitusiya quruluşu bərqərar olunub. Artıq güclü təməllər üzərində müasir, suveren, bütöv və yeni Azərbaycan qurulub. Təbii ki, bu zəfərlərin davamlılığı növbəti seçkilərin nəticəsindən əhəmiyyətli dərəcədə asılıdır.

Müşfiq Cəfərov onu da qeyd edib ki, Azərbaycanı prezident seçkilərindən sonra daha parlaq gələcək gözləyir. Xalqın doğru seçimi ölkəmizin daha güclü dövlət kimi beynəlxalq arenada öz mövqelərini möhkəmləndirməsinə zəmin yaradacaq. Davamlı inkişafa yönəlmiş siyasət Azərbaycana bundan sonra da böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcək.



"Hazırkı mürəkkəb beynəlxalq münasibətlər şəraitində gənc və müstəqil Azərbaycanın təhlükəsizliyini təmin etmək, mövqeyimizi daha da möhkəmləndirmək vacib şərtlərdəndir. Ümumiyyətlə, indiki halda ölkələrin hərtərəfli inkişafını təmin etmək böyük siyasi təcrübə tələb edir. Ona görə də xalq öz səsini güclü təməllər üzərində qurulmuş siyasi kursa, aydın və qəti mövqeyə sahib namizədə verməlidir", - deyə müsahibim bildirib.

Müşfiq Cəfərovun fikrincə, hər zaman olduğu kimi, növbəti dəfə də ölkəmizdə prezident seçkiləri tam şəffaf və demokratik keçiriləcək: "Bu zamana qədərki müşahidələr də bu baxımdan əminlik yaradır. Azərbaycan seçicisi seçimində hər zaman sərbəstdir. Vətəndaşların öz namizədlərini dəstəkləmələri üçün siyasi-hüquqi bazis mövcuddur və bunun üçün lazımi şərait yaradılıb. Burada vətəndaşların üzərinə düşən məsuliyyət isə seçki aktivliyini təmin etməkdir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycan Ordusunun hərbi qulluqçularının səsvermədə iştirakı üçün zəruri tədbirlər görülür

Azərbaycan Ordusunun şəxsi heyəti fevralın 7-də Müdafiə Nazirliyinin hərbi hissə və müəssisələrində yaradılan qapalı seçki məntəqələrində prezident seçkilərinin səsverməsində iştirak edə biləcəklər.

AZƏRTAC xəbər verir ki, bu barədə "seçki-2024.az" saytının sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, seçkilərin Azərbaycan Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsi, eləcə də şəffaflığın təmin edilməsi üçün hərbi hissə və müəssisələrin ərazilərində fəaliyyət göstərəcək məntəqələrdə zəruri tədbirlər görülür. Eyni zamanda Azərbaycan Ordusunda xidmət keçən bir qrup hərbi qulluqçu prezident seçkiləri ilə bağlı səsvermədə ilk dəfə iştirak edəcək. Müdafiə Nazirliyi ilk dəfə səs verəcək hərbi qulluqçuları nəzərə alaraq Seçki Məcəlləsi ilə tanışlıq və digər maarifləndirici məlumatların çatdırılmasını da həyata keçirir.

"Ölkə üzrə bütün seçki məntəqələrində olduğu kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin də seçki prosesində hüquqlarının azad və sərbəst şəkildə təmin olunması üçün hərtərəfli şərait və əlverişli mühit yaradılacaq", - deyə məlumatda qeyd edilib.

Vurğulanıb ki, çətin relyefli dağlıq ərazilərdə döyüş növbətçiliyi aparan bölmələrdə olan seçicilərin səsvermədə iştirakının təmini üçün daşınan seçki qutularından istifadə ediləcək.

## GUAM-ın müşahidə missiyası Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini izləyəcək

GUAM-ın müşahidə missiyası fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini izləyəcək.

Bu barədə AZƏRTAC-a GUAM-ın katibliyindən məlumat verilib. Bildirilib ki, 5 nəfərdən ibarət olacaq nümayəndə heyətinə GUAM-ın Baş katibi Altay Əfəndiyev, Ukrayna Ali Radasının deputatları Svyatoslav Yuraş, Mixail Papiyev, Gürcüstan parlamentinin deputatı David Matikaşvili və GUAM Katibliyinin proqram koordinatoru Teymuraz Kiladze daxildir.

GUAM-ın müşahidə missiyası səsvermədən sonra seçkinin nəticələrinə dair hesabat yayacaq.

## Azərbaycanda aparılan seçkiqabağı sorğu ilə bağlı tədbir təşkil olunub

Yanvarın 22-də ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı apardığı seçkiqabağı sorğuya dair tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə təmsil etdiyi təşkilat barədə məlumat verən Vlada Galan "ORACLE ADVISORY GROUP" təşkilatının ABŞ, Macarıstan, Rumıniya, İsrail, Çexiya da daxil olmaqla, dünyanın bir çox ölkələrində seçki prosesini izlədiyini bildirib. O deyib ki, Azərbaycandakı seçkilər onların iştirak etdikləri 25-ci qlobal səsvermə olacaq. V.Galan vurğulayıb ki, ölkəmizdə keçirilən seçkilərdə artıq 5-ci dəfədir iştirak edirlər. Təşkilat prezident seçkilərini üçüncü dəfə izləyəcək.

Təşkilatın digər nümayəndəsi George Brinbaum Azərbaycanın 40 bölgəsində səsverməni müşahidə edəcəklərini deyib. O bildirib: "Biz Qarabağ və Şərqi Zəngəzura da gedəcək və əsasən, 4-5 mövzu üzrə sorğular aparacağıq. Bunlara əsasən, ölkənin iqtisadi vəziyyəti, təhlükəsizliyi, Qarabağdakı qazanılan uğurlar daxildir.

Ölkənin 500 məntəqəsində müşahidə aparacağıq, 25 nəzarətçimiz olacaq".

G.Brinbaumun sözlərinə görə, sorğuda alimlərin, ziyalıların fikirləri də öyrəniləcək.

Hər 3 saatdan bir daxili hesabatın hazırlanacağını diqqətə çatdıran "ORACLE ADVISORY GROUP" təşkilatının nümayəndəsi seçkiqabağı sorğu ilə bağlı nəticələrin gələn həftə açıqlanacağını diqqətə çatdırıb.

Qeyd edək ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində səsvermə günü "exit-poll" keçirmək üçün MSK-ya müraciət edənlərdən biri də Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasıdır. Liqa "exit-poll"u ABŞ-nin "OREACLE ADVISORY GROUP" təşkilatı ilə birgə keçirəcək.

## Əsgəran seçki məntəqəsində hazırlıq işləri başa çatıb

Növbədənkənar prezident seçkilərinin əsas özəlliklərindən biri də odur ki, 30 ildən sonra seçki kampaniyası bütün ölkə ərazisini əhatə edir. Bundan böyük fərəh, bundan əzəmətli qürur olarmı?!

Qarabağın işğaldan azad edilmiş bütün ərazilərində olduğu kimi, Əsgəran qəsəbəsində də prezident seçkilərinə hazırlıq işləri tarixi qələbədən qaynaqlanan xoş ovqatla müşayiət olunur. Əsgəran qəsəbəsindəki seçki məntəqəsi 124 saylı Ağdam-Şuşa-Xocavənd-Xocalı Seçki Dairəsinin tərkibindədir. Məlum səbəbdən qəsəbədə əhalinin məskunlaşması başa çatdırılmadığından burada seçici sayı azdır - 207 nəfər. Məntəqə seçki komissiyasının sədri Əliniyaz Nəcəfov deyir ki, biz üzərimizə məsul və şərəfli vəzifə düşdüyünün fərqindəyik: "Bu səbəbdən Mərkəzi Seçki Komissiyasının bütün təlimat və tövsiyələrinə ciddi əməl edirik.



Məntəqənin texniki avadanlıqlarla təminatı yüksək səviyyədədir. Seçici siyahıları da dəqiqliklə tərtib olunaraq xüsusi lövhəyə vurulmuşdur. Əminliklə deyə bilərəm ki, məntəqə seçkilərə tam hazırdır".

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Naxçıvanda seçkilərə hazırlıq prosesi uğurla aparılır

Bu il fevralın 7-də ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş qalib xalqın nümayəndələri kimi ilk dəfə prezident seçkilərində iştirak edəcəyik.





Seçkilərin elan olunmasından ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasının dairə, məntəqə seçki komissiyaları tərəfindən prosesin qanunvericiliyə uyğun tam şəffaf, demokratik şəkildə keçirilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Seçki təbliğatı və təşviqatının aparılması üçün lazımi imkanlar yaradılıb. Artıq yanvarın 17-dən başlayaraq məntəqə seçki komissiyasının üzvləri üçün treninqlərə də start verilib.

1 saylı Şərur-Sədərək seçki dairəsinin 1-36 saylı məntəqə seçki komissiyası Sədərək rayonunun Heydərabad qəsəbə tam orta məktəbində yerləşir. Məntəqə seçki komissiyasının sədri Azər Abdulayev bildirdi ki, bu seçki məntəqəsi üzrə 1219 seçici qeydə alınıb. Bu seçicilərdən 70 nəfəri ilk dəfə seçkilərdə iştirak edəcək.

Qeyd edək ki, məntəqədə seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün hər cür şərait yaradılıb. Məntəqə lazımi avadanlıq və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Həmçinin məntəqədə seçki qutuları və lazımi inventar avadanlıqları qoyulub, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər də gətirilib. Məntəqə seçki komissiyasının katibi və üzvləri, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər müəyyənləşdirilib.

1-37 saylı seçki məntəqəsi isə rayon Mədəniyyət Sarayının inzibati binasında yerləşir. Məntəqə seçki komissiyasının katibi Kəmalə Əliyeva bildirdi ki, bu məntəqə üzrə 1065 seçici sayı müəyyənləşib. Onlardan 3 nəfəri ilk dəfə səsvermədə iştirak edəcək. Öyrəndik ki, buradakı seçki məntəqəsi də lazımi avadanlıq və metodiki vasitələrlə təchiz edilib, ərazidə seçkiqabağı təşviqatın aparılması üçün lazımi şərait yaradılıb.

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi üzrə isə 60 seçki məntəqəsi yaradılıb. 3-47 saylı seçki məntəqəsi Şahbuz rayonunun Kükü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Mayis Məmmədovun verdiyi məlumata görə, bu seçki məntəqəsi üzrə 915 seçici qeydiyyata alınıb, 54 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Kəndin ən yaşlı seçicisi isə 1932-ci il təvəllüdlü Anaxanım Səfərovadır. Bu günədək məntəqəyə daşınan qutu ilə bağlı müraciət daxil olmayıb.

Məntəqə seçki komissiyasının sədri onu da bildirdi ki, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılıb. Bu məqsədlə məntəqədə səsvermə kabinələri ayrılıb, daşınan və daşınmaz seçki qutuları qoyulub. Həmçinin seçicilərin maarifləndirilməsi üçün məlumat lövhələri yerləşdirilib, seçki məntəqəsindən kənarda səs vermək üçün ərizə formaları hazırlanıb, şəffaflığın təminatına xidmət edən ultrabənövşəyi lampalar, möhür, generator və digər ləvazimatlarla təchizat həyata keçirilib.

3-52 saylı seçki məntəqəsi isə adıçəkilən rayonun Ağbulaq kəndindəki tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Elşən Cəfərov bizimlə söhbət zamanı bildirdi ki, bu seçki məntəqəsi üzrə 299 seçici qeydiyyata alınıb, onlardan 14-ü ilk dəfə səsvermədə iştirak edəcək. Məntəqənin ən yaşlı seçicisi isə 1933-cü ildə dünyaya göz açan Əfruz İmanovadır. Seçkilərin obyektiv və şəffaf şəkildə keçirilməsi üçün bütün lazımi inventarlar və ləvazimatlarla təminat reallaşdırılıb.

Olduğumuz seçki məntəqələrində müşahidə etdiklərimizə əsasən deyə bilərik ki, muxtar respublikada prezident seçkilərinə hazırlıq yüksək səviyyədədir. Beynəlxalq standartlara uyğun, qanunvericilik əsasında yaradılan əlverişli şərait fevralın 7-də həm yerli, həm də beynəlxalq müşahidəçilərin prosesi düzgün şəkildə izləməsinə imkan verməklə seçkinin tam şəffaf və obyektiv keçirilməsinə xidmət edəcək.

*Nail ƏSGƏROV,*
*"Şərq qapısı" qəzetinin əməkdaşı*

## Zəngilanlılar yenə fəal olacaqlar

Fevralın 7-si yaxınlaşdıqca dairə və məntəqə seçki komissiyalarında işlər artır. 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi də bu baxımdan istisna deyil.

DSK-nın məntəqələrinin bir qismi hələlik Sumqayıt şəhərində yerləşir. 18 saylı məntəqə Sumqayıt İnşaatçılar qəsəbəsindəki 18 saylı tam orta məktəbin binasında təşkil olunub. Məntəqənin sədri Camal Zeynalov bizimlə söhbətində bildirdi ki, seçki marafonu başlayandan məntəqədə işlər təlimatlara uyğun aparılır. 1435 seçicinin siyahısı dəqiqləşdirilib. Namizədlərin platformaları məntəqə önündəki xüsusi lövhədən asılıb. Bəzi namizədlərin nümayəndələri ilə məntəqədə tanışlıq görüşləri də keçirilib.

Məntəqədə ilk dəfə səsverənlər 54 nəfərdir.

- Taleyimin xoş anlarından birini yaşayıram, - deyə Zeynəb Ağakişiyeva bildirir. - Mən Sumqayıtda doğulsam da, Zəngilana bağlı biriyəm. Atam bizə o yerlərdən çox danışıb. Artıq torpaqlarımız işğaldan azad edilib. Ağalılılar doğma yurda köçüblər. Yəqin ki, yaxın zamanda biz də qayıdacağıq. Bir gənc olaraq qələbəmizə, gələcəyimizə səs verəcəm. Bu, təkcə mənim deyil, bütün gənclərimizin seçimidir.

Məntəqə üzvləri Sahib Kazımov, Həsən Məmmədov və Yeganə Məmmədova dedilər ki, gənclər hər dəfə məntəqəyə gələndə onlara texniki işlərdə kömək edirlər. Siyahıların asılması, ləvazimatların daşınması və digər işlərdə əllərindən tuturlar.

Məntəqədə 93 yaşlı Vəzifə Cabbarova da səs verəcək. Səhhətində müəyyən problemlər olduğu üçün Vəzifə nənə ilə görüşə bilmədik. Amma yaxınlarına bildirib ki, seçki günü mütləq məntəqəyə gəlib səs verəcək.

Məntəqənin katibləri Zinyət Orucova və Səbinə Əliyeva bildirdilər ki, artıq görüləsi texniki iş qalmayıb. Məntəqə daşınmaz və daşınan qutu, generatorla təmin edilib. Müşahidəçilərə gəlincə, onların sayı seçki günü dəqiqləşəcək. Səsvermə günü məntəqəyə gələ bilməyəcək seçici hələ ki, yoxdur. Əgər belə hal yaranarsa, səyyar qutular var, ünvana aparılacaq.

Məntəqənin sədri C.Zeynalov isə bildirdi ki, zəngilanlılar bütün dövlət tədbirlərində həmişə fəallıqları ilə seçiliblər. Ona görə növbədənkənar prezident seçkilərində də fəal iştirak edəcəklərinə əmindirlər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## "Ərazi bütövlüyümüz şəraitində keçiriləcək ilk seçkidə iştirak etmək şərəfdir"

### Bu, Göygölün 80 yaşlı sakininin ürək sözləridir

Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə indi bütün dairə və məntəqələrdə geniş hazırlıq işləri görülür. Seçicilərin rahat, sərbəst şəraitdə istədikləri namizədə səs verməsi üçün hər cür şərait yaradılır.

100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər Seçki Dairəsində (DSK) hazırlıq işləri demək olar ki, başa çatmışdır. Hazırda dairəni əhatə edən seçki məntəqələrində hazırlığın vəziyyəti bir daha nəzərdən keçirilir. DSK-nın sədri İftixar Hüseynovdan öyrəndik ki, dairəni əhatə edən 98 seçki məntəqəsində bütün hazırlıq işləri başa çatmışdır: "Məntəqələrdən 51-i Göygöldə, 44-ü Daşkəsəndə, 3-ü isə Kəlbəcərdədir. Ümumilikdə 52 min 361 seçici səsvermədə iştirak etməlidir. Məntəqələrin 13-də veb-kamera quraşdırılmışdır". Sədr onu da əlavə etdi ki, dairə üzrə 70 yaşdan yuxarı 4 min 127, ilk dəfə səs verənlərin sayı isə 2 min 821 nəfərdir.

Məntəqələrdə prezident seçkilərinə hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təqvim planına uyğun həyata keçirilir. Seçki məntəqələrinin yerləşdiyi ərazilərdə seçkiqabağı təşviqatın aparılması, habelə təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər ayrılmışdır. Bütün məntəqələr elektrik generatorları, etibarlı rabitə ilə təmin olunmuşdur.



Prezident seçkilərinə hazırlığın vəziyyəti ilə tanış olmaq üçün Göygöl şəhər Mərkəzi mədəniyyət evində yerləşən 1 saylı məntəqədə olduq. Sədr Cəmilə Vəliyeva məntəqədə seçkilərə hazırlığın vəziyyəti ilə bağlı məlumat verərək bildirdi ki, seçkilərin şəffaf və demokratik keçməsi, o cümlədən müşahidəçilərin sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Məntəqədə olarkən 80 yaşlı Vilayət Hacıyev bizə yaxınlaşıb seçki ilə bağlı ürək sözlərini dedi. Bildirdi ki, hamı kimi o da fevralın 7-də seçki məntəqəsinə gələrək ən layiqli namizədə səs verəcək.

Sonra əlavə etdi ki, ərazi bütövlüyümüz şəraitində keçiriləcək ilk seçkidə iştirak etməsi onun üçün böyük şərəfdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Seçkilərdən seçkilərə



# Milli yüksəliş və tərəqqi dövrü

## Siyasi və iqtisadi müstəqillik Azərbaycanı güc və söz sahibinə çevirib

Son 20 ildə uğurlu inkişaf yolu keçən Azərbaycan bu gün qüdrətli dövlətə çevrilib. Dünya təcrübəsində çox az ölkəni nümunə göstərmək olar ki, cəmi 30 illik müstəqillik tarixi ərzində belə genişmiqyaslı uğurlara imza atsın.

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın bu qısa zamanda əldə etdiyi uğurları şərtləndirən ən mühüm amil əlbəttə ki, siyasi və iqtisadi müstəqillikdir. Son illərdə Azərbaycanın tam müstəqil siyasət yürütməsi ölkəmizi dünyada etibarlı tərəfdaşa söz və güc sahibinə çevirib. Bu gün Azərbaycan dünyada sosial-iqtisadi cəhətdən inkişaf etmiş, sabit, təhlükəsiz və müasir həyat səviyyəsinin təmin olunduğu ölkə kimi tanınır, beynəlxalq aləmdə nüfuzu əhəmiyyətli dərəcədə artır. Milli iqtisadiyyatımızın liberallaşdırılması, ölkəmizin beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi çəkisinin artması, sosial, iqtisadi inkişafın və siyasi sabitliyin təmin edilməsi, vətəndaş-dövlət birliyinə nail olunması və digər amillər müstəqil Azərbaycanın yüksələn xətlə irəliləməsini şərtləndirib.

Azərbaycanın iqtisadi modelini əksər hallarda ölkənin inkişafı modeli kimi dəyərləndirirlər. Çünki son 20 ildə Azərbaycan nəinki dünyanın ən dinamik iqtisadiyyata malik ölkəsi kimi tanınıb, həm də beynəlxalq miqyasda müasir dəyərlər çərçivəsində daha sürətlə dəyişən ölkə imicini qazanıb.

Tarixə qısa ekskurs etsək görərik ki, 2003-cü ildən ölkəmizdə yeni sosial-iqtisadi inkişaf modelinə keçidə start verildi. Bu model çərçivəsində iqsadiyyatın şaxələndirilməsi və rəqəmsallaşması, özəl sektorun rolunun gücləndirilməsi və investisiyaların cəlb olunması üçün əlverişli mühitin yaradılması, sosial problemlərin həlli üzrə çox sürətli addımlar atıldı. Sosial-iqtisadi islahatlar nəticəsində böyük uğurlar əldə edildi və Azərbaycan regionun aparıcı iqtisadi gücünə çevrildi.

Ölkəmizin əldə etdiyi sosial-iqtisadi nailiyyətlərə diqqət etsək görərik ki, respublikamız Cənubi Qafqaz iqtisadiyyatında 64 faiz paya malik güclü iqtisadiyyat formalaşdırıb. Son illər ərzində ölkəmizin iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 318,9 milyard dollar təşkil edib. İqtisadiyyata qoyulmuş birbaşa xarici investisiyaların həcmi isə 100,6 milyard dollar olub. Ölkədə ümumi daxili məhsul 7,3 milyard dollardan 72,4 milyard dollara çatıb. Bu isə 3,6 dəfə real artım deməkdir. 2003-cü ildə 1,6 milyard dollar təşkil edən valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara çatıb. Xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 51,2 milyard dollara çatıb. Ticarət tərəfdaşlarının sayı 55 ölkə artaraq 193-ə yüksəlib.

Bununla yanaşı, orta aylıq əməkhaqqının nominal məbləği 12 dəfə artaraq 76,8 manatdan 923 manata çatıb. Yoxsulluq səviyyəsi 44,7 faizdən 5,2 faizə enib. Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü dövlət proqramları yoxsulluğun kəskin şəkildə azalmasını şərtləndirib və ölkəmiz bu sahədə müsbət təcrübəsinə görə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilib. Kənd təsərrüfatı sektoru 2,1 dəfə, nəqliyyat sektoru 4,1 dəfə, turizm və ictimai iaşə sektorları 17,5 dəfə, informasiya və rabitə sahəsi isə 20,9 dəfə artıb.

Məhz bu dövrdə minimum əməkhaqqı 38, orta aylıq əməkhaqqı 12, minimum pensiya 14, orta aylıq pensiya 18, yaşa görə orta aylıq pensiya 19, əlilliyə görə pensiya 14, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb.

Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə ölkəmizin deyil, qonşu regionların da inkişafına mühüm töhfəsini verir. Bu layihələr arasında Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında başlıca rol oynamaq qabiliyyətinə malik "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr yer alır.

Ölkəmizdə həmçinin sənayeləşmə prosesi uğurla davam edir. Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması geniş vüsət alıb. Hazırda bu proses bir neçə şəhərdə gedir. Sənaye zonalarında 140 rezidentdən 74-ü fəaliyyət göstərir. Aqroparkların yaradılması çox müsbət amil kimi dəyər qazanır.

Hazırda Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Bundan başqa, Azərbaycan qısa müddət ərzində borcalan dövlətdən regional və dünya səviyyəli donor ölkəyə çevrilib.

Bu gün Azərbaycan dünya kosmik ailəsinin üzvüdür. Orbitdə "Azerspace-1", "Azerspace-2" və "Azersky" müşahidə peyklərimiz Azərbaycanın müasir dövlət kimi inkişaf etdiyini təsdiqləyən reallıqdır.

Hazırda Azərbaycan milli maraqlara və beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparır, digər dövlətlərin daxili işlərinə qarışmır və eyni yanaşmanı özünə qarşı da tələb edir. Beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaşı kimi tanınan Azərbaycan böyük hörmət və etimada malik dövlət olduğunu təsdiqləyib.

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərlə ərazi bütövlüyünü tam təmin edən Azərbaycan bu gün iqtisadi müstəqilliyinin yaratdığı imkanlar hesabına Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş quruculuq işləri aparır. Bu prosesdə isə heç bir dövlətdən, heç bir beynəlxalq maliyyə qurumundan maddi yardım almır.

2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"dir. İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə ölkəmiz hər zaman olduğu kimi qlobal təşəbbüslərlə çıxış edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bu il ölkəmizdə keçirilməsi qərarı da hər şeydən öncə Azərbaycana yüksək etimadın, inamın göstəricisidir. Son illərdə ölkəmizin bir çox mühüm beynəlxalq konfransa, tədbirə evsahibliyi etməsi Azərbaycanın bu sahədə də kifayət qədər təcrübəyə malik olduğunu göstərir. COP29 miqyasına, iştirakçılıq sayına və statusuna görə dünyanın ən böyük tədbirlərindən biridir. COP tədbirlərinə 70-100 min arasında iştirakçı qatılıb. 50-dən artıq dövlət rəhbərləri konfransda iştirak edib. Bu isə onu deməyə əsas verir ki, bu beynəlxalq toplantının Bakıda keçirilməsi həm də müasir Azərbaycanın dünyaya hərtərəfli təqdimatı olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Dövləti dövlətli edən humanitar siyasətidir

## Bu gün Azərbaycan həm də beynəlxalq donor ölkə kimi tanınır

Vaxt var idi müstəqilliyə yenicə qədəm qoymuş Azərbaycan ərazisinin böyük bir hissəsini itirərək məcburi köçkün problemini yaşadığı üçün yardıma möhtac idi. Zaman o zaman idi ki, ölkənin müxtəlif yerlərində qurulmuş qaçqın-köçkün düşərgələrini, çadır qəsəbələrini daxili imkanlar hesabına saxlamaq çox çətin idi.

Digər tərəfdən, Birinci Qarabağ müharibəsinin fəsadlarını yığıb-yığışdırmaq olmurdu. Ona görə də kənardan gələn humanitar yardımlara ehtiyac böyük idi.

İndi o keşməkeşli dövrü xatırlayanda görürük ki, müstəqilliyini çətinliklə də olsa, qoruyub saxlayan ölkəmiz necə bir inkişaf yolu keçmiş, siyasi, iqtisadi, hərbi və digər istiqamətlər üzrə əldə edilən uğurların sayəsində bölgədə və dünyada söz sahibi olan dövlətə çevrilmişdir. Bu gün inkişafının yeni mərhələsini yaşayan Azərbaycanda kompleks islahatlar həyata keçirilir, geniş quruculuq işləri aparılır, Qarabağ və Şərqi Zəngəzur başdan-başa yenidən qurulur. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və həmin sənədlərdə qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz də artan gücümüzdən, imkanımızdan xəbər verir. Dünənə kimi başqalarından humanitar yardım alan Azərbaycan bu gün özü ehtiyacı olan ölkələrə yardım göstərir.

Yardım etmək isə həm də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi deməkdir. Bu baxımdan Azərbaycan beynəlxalq humanitar aksiyalara təkcə mərhəmət və şəfqət hissi ilə deyil, özünün xarici siyasətinin əsas, davamlı istiqamətlərindən biri kimi yanaşır.

Azərbaycan bu yanaşmanı 2011-ci ildə humanitar strategiya siyasəti kimi rəsmiləşdirərək Xarişi İşlər Nazirliyi çərçivəsində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyini (AİDA-Azerbaijan İnternational Development Agency) təsis etmişdir. Agentliyin əsas məqsədi zərərçəkən ölkələrin içməli su, ərzaq, dava-dərman, təmizlik ləvazimatı, tibbi yardım, müvəqqəti sığınacaqlar kimi ən ümdə ehtiyaclarını vaxtında və səmərəli şəkildə qarşılamaqdır. Həmin ildən etibarən AİDA tərəfindən Asiya, Afrika, Latın Amerikasının 100-dən çox ölkəsinə ərzaq, dərman, təhsilyönümlü və digər humanitar sahələrdə yardımlar edilmişdir. Məsələn, bəzi ölkələrdə xüsusi proqram çərçivəsində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri pulsuz müayinələr aparmış, zəruri hallarda katarakta və qlaukomaya qarşı pulsuz əməliyyatlar aparmışlar. Daha bir fakt: 2014-cü ildə Serbiya və Bosniya Herseqovina leysan yağışları üzündən daşqınlara məruz qalmışdı. Bəzi yerlərdə yaşayış məntəqələrindəki insanları təxliyə etmək məcburiyyəti yaranmışdı. Həm humanitar yardım, həm də təxliyə prosesi agentlik tərəfindən zamanında aparıldığına görə bölgədə fəlakətin acı nəticələri həddindən artıq olmamışdı. Dünyanı çənginə almış COVID-19 pandemiyasına qarşı mübarizə zamanı da Azərbaycan dünyaya örnək olası addım atmışdır - humanitar yardıma ehtiyac duyan ölkələrə təmənnasız kömək əlini uzatmışdır. Pandemiya dövründə dövlətimiz onlarla ölkəyə vaksin göndərmiş və bunun sayəsində çoxlu sayda insanın həyatı xilas olmuşdur. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan bu gün beynəlxalq donor ölkə kimi çətin günün dostudur.

Məlumdur ki, iqlim dəyişikliyi bəşəriyyət üçün böyük bir təhdiddir və o, su qıtlığı, ərzaq çatışmazlığı, məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur. Dünyanın kiçik ada ölkələri iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün hər zaman yer üzündən silinmək təhlükəsi ilə üzləşirlər. Odur ki, Azərbaycan həmin ölkələrə, eləcə də Qoşulmama Hərəkatının ehtiyacı olan üzv dövlətlərinə müntəzəm olaraq maliyyə və humanitar yardımları göstərir. Təkcə pandemiyadan sonra Afrika və inkişaf edən kiçik ada ölkələrinə Azərbaycan donor ölkə kimi 1 milyon dollar məbləğində vəsait ayırmışdır. Bura Azərbaycanın ötən il Moldovadakı ukraynalı qaçqınların ehtiyaclarının qarşılanması üçün 1,7 milyon manatlıq humanitar yardımı, Ukraynaya dəfələrlə göndərdiyi dərman vasitələrini və ərzaq məhsullarını da əlavə etsək, dövlətimizin humanitar siyasəti daha aydın olur.

Keçən il fevralın 6-da Türkiyədə baş verən zəlzələ vaxtı qardaş ölkəyə ilk yardım edən də Azərbaycan oldu. Fəlakət vaxtı 40 mindən çox insanın həlak olması, dağıntıların böyüklüyü ürəkparçalayan mənzərə yaratmışdı. Belə bir vaxtda Azərbaycan kənarda qala bilməzdi və qalmadı da. Xalq və dövlət ayağa qalxdı. Qısa vaxtda - cəmi ay yarım ərzində ölkəmizin humanitar maliyyə yardımının ümumi məbləği 76,3 milyon manat oldu. 6665 çadır, 145 konteyner tipli modul ev, iki səhra hospitalı və 4 səhra mətbəxi qurularaq qardaş ölkəyə göndərildi. Bundan başqa, 786 elektrik generatoru, 11,3 min qızdırıcı və texniki avadanlıq, 95 min 580 yataq və yataq ləvazimatı, 207 min dəst isti paltar, 252 ton yanacaq çatdırıldı. Bu rəqəmlər təbii ki, dövlətin rəsmi göstəriciləridir. Xalqın şəxsi təşəbbüsü ilə baş tutan yardım kampaniyasının davam etdiyi günlərdə azərbaycanlıların insanpərvərliyi, humanizmi, mərhəmət və şəfqətinin nə qədər aşıb-daşdığını da dünya gördü.

Azərbaycan iqtisadi müstəqilliyini çoxdan təmin edib. Həmin təminat ölkəmizin maliyyə imkanlarının artmasında da özünün göstərir. Məhz bu maliyyə imkanları hesabına Azərbaycan işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini xaricdən yardım almadan özü həyata keçirir. Üstəlik, ehtiyacı olanlara yardım əlini uzadır, adını inkişaf etmiş qoyub yalnız özünü fikirləşən ölkələrdən fərqli olaraq heç bir xalqdan, heç bir dövlətdən köməyini əsirgəmir. Və bununla bir daha sübut edir ki, dövləti dövlətli edən həm də onun humanitar siyasətidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# BP Azərbaycanda fəaliyyətini genişləndirir

## Şirkətin operatoru olduğu ACE platformasından tezliklə ilk neft hasil ediləcək

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel Bakıda beşgünlük işgüzar səfərdə olub. Q.Birrel və BP qrupunun bir sıra yüksəksəviyyəli mütəxəssisləri səfər zamanı şirkətin regiondakı biznesinin gedişi və əməliyyatçılıq etdiyi layihələr üzrə 2024-cü il üçün planlaşdırılmış işlərlə tanış olublar.

Səfər zamanı BP-nin regiondakı işçi heyəti ilə görüşlər keçirilib və layihələrdəki hazırkı vəziyyət, görüləsi perspektiv işlər haqqında şirkətin regional rəhbərliyi ilə müzakirələr aparılıb. Q.Birrel BP-nin əməliyyatçısı olduğu və dənizdə yeni quraşdırılmış "Azəri Mərkəzi Şərqi" (ACE) platformasına səfər edib və bu ilin əvvəllərinə planlaşdırılmış ilk ACE neftinin əldə olunması üçün aparılan hazırlıq işləri ilə tanış olub.

Xatırladaq ki, ACE layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişə əsasən həyata keçirilir. Saziş 2017-ci il sentyabrın 14-də imzalanb, Milli Məclis tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olunub və 2019-cu ildə yeni layihə üzrə tikinti işlərinə start verilib. Bununla da AÇG-nin işlənilməsində yeni dövr başlanıb.

Yeni sazişlə nəhəng AÇG blokunun işlənilməsi 2049-cu ilin sonuna qədər uzadıldı. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmadı. O cümlədən BP şirkəti layihənin operatoru olaraq qaldı.

Bütün bunlar bir daha təsdiq etdi ki, Azərbaycanın təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyası uğurla davam və inkişaf etdirilir. Son illər Azərbaycan dövləti möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Təbiətin xalqımıza bəxş etdiyi təbii sərvətlərdən böyük səriştə və uzaqgörənliklə istifadə olunur və onların istismarından əldə edilən gəlirlər ölkənin inkişafına, xalqın rifahına yönəldilir. ACE bu işlərin uğurlu davamıdır.



ACE layihəsi çərçivəsində eyniadlı platforma fəaliyyət göstərəcək. Bir neçə ay əvvəl Bayıl tikinti-quraşdırma sahəsindən Xəzərdəki daimi yerinə yola salınmış platformanın üst modullarının dənizdə bütün quraşdırma işləri və istismar sınaqları təhlükəsiz şəkildə tamamlanıb.

Hasilata başlayacaq qurğu dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yerləşir, elə adını da yaxın qonşularından alıb. ACE 48 şaxtalı hasilat, qazma və yaşayış platformasıdır.

ACE layihəsinə, həmçinin yeni yataqdaxili sualtı boru kəmərləri də daxildir. Xətlər qurğudan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün AÇG-nin mövcud sualtı ixrac kəmərlərinə qoşulacaq. Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressiya və suvurma platformasından ACE qurğularına nəql etmək məqsədilə ACE və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

ACE-nin qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır. İşlərin pik dövründə Azərbaycanda ACE layihəsinin tikintisinə 8500 nəfərdən çox fəhlə, texnik, mütəxəssis cəlb edilmişdi.

Yeni platformanın dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilmiş və üç il çəkən inşaat işləri 2022-ci ilin sonunda təhlükəsiz şəkildə tamamlanmışdı. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, ikincisi neft, sonuncusu qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildi.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə qeyd edildiyi kimi, Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılmışdı. Üst modullara neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

ACE "Azəri-Çıraq-Günəşli"nin yeddinci hasilat platforması olacaq. Hazırda bu yataqlar blokunda "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformaları fəaliyyətdədir. Beləliklə, bu il onların sırasına "Mərkəzi Azəri Şərqi" də qoşulacaq.

Qeyd edək ki, yuxarıda sözügedən səfər proqramı çərçivəsində Qordon Birrellə Baş nazir Əli Əsədov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və SOCAR-ın prezidenti Rövşən Nəcəf arasında işgüzar görüşlər də olub. Bu görüşlərdə BP-nin dünya üzrə, həmçinin regiondakı biznesinin gedişi, icraçısı olduğu enerji layihələri çərçivəsində görülən işlərin hazırkı vəziyyəti və şirkətin Azərbaycanın enerji keçidinə dəstək məqsədli fəaliyyətləri ilə bağlı məsələlər müzakirə olunub. Beləliklə, Azərbaycanla BP-nin əməkdaşlıq və tərəfdaşlığı uğurla davam etməklə yanaşı, həm də genişlənir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransasayağı "ədalət"

### Senat topun-tüfəngin bacarmadığını kağız parçası ilə etmək istəyir

Məlum olduğu kimi, erməni lobbisinin güclü olduğu ölkələr vaxtaşırı Azərbaycanın əleyhinə bəyanatlar verir, bizim üçün lazımsız kağız dəyərində olan sənədlər qəbul edir və bununla guya haqqın-ədalətin müdafiəçisi olduqlarını gözə soxmaq istəyirlər. Ancaq onların bu yalançı erməni sevgi və təəssübkeşliyinin bir həddi olur. Hətta arada Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini də bildirirlər.




Amma Fransa istisnadır. Bu ölkə Emmanuel Makronun timsalında bütün beynəlxalq hüquq prinsiplərini pozur və diplomatik etik qaydalarına məhəl qoymur. Hətta o dərəcədə ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi özünün də erməni işğalına son qoyulması barədə səs verdiyi qətnamələri görməzdən gəlir. Bəli, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində 30 il aparılan danışıqlarda Fransa vasitəçi ölkə olaraq Azərbaycanın ərazi bütövlüyünü formal olsa da, tanıyırdı. Elə ki, 44 günlük Vətən müharibəsində tarixi zəfərlə ərazi bütövlüyümüzü bərpa etdik, Fransanın maskası yırtıldı. Hətta müharibə vaxtı şəhər, qəsəbə və kəndlərimizi bir-bir düşmən işğalından azad edərkən Fransa prezidenti absurd "biz imkan verməyəcəyik ki, Azərbaycan Dağlıq Qarabağı ikinci dəfə işğal etsin" bəyanatını verməkdən də çəkinmədi. Əslində, Fransa prezidenti erməni sevgisindən vəcdə gəlib belə bir bəyanat verdikdən sonra səhv etdiyini başa düşüb üzr istəməli idi. Ancaq günü bu günəcən bunun əksini görürük - ərazilərimiz işğaldan tam azad olunduqdan sonra belə sərsəm bəyanatların sayı da artıb. Bu azmış kimi, Makron ölkəsinin Senatını da ardınca aparıb ədalətsiz mövqeyinə ortaq edir.

Nədənsə 30 il Ermənistan tərəfindən Azərbaycanın tarixi və qanuni ərazisi işğal edilən də Fransanın yadına düşmədi ki, "kiçik bacı"sı özgə torpaqlarını zəbt edib, qoşunları qonşu ölkənin ərazisindədir və 1 milyona yaxın insanı doğma yurdlarından didərgin salıb. Ancaq biz Hayastanın ərazisini işğal etmədiyimiz və orada bircə əsgərimiz olmadığı halda, Fransa Senatı "Azərbaycan və onun müttəfiqini öz qoşunlarını Ermənistan ərazisindən çıxarmağa" çağırış edir. Birincisi, təkrar edirik, Azərbaycanın hərbi qüvvələri Ermənistan ərazisində yoxdur. İkincisi, hansı müttəfiqdən söhbət gedir? Əlinizdə sübut varsa, açıq deyin. Deyə bilmirsinizsə (və yəqin ki, bu belədir), deməli, yoxdur. İkincisi də, Azərbaycan hərbi cəhətdən elə zəif deyil ki, Ermənistan kimi zəif ölkə ilə sərhədini qorumaq üçün müttəfiqə ehtiyacı olsun.

Ümumiyyətlə, Senatın qətnaməsini oxuyanda heyrət etməmək mümkün deyil. Bu kağız parçasında "Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ", "Dağlıq Qarabağ Respublikası", "Dağlıq Qarabağın demokratik surətdə seçilmiş liderləri", "Dağlıq Qarabağ Respublikasının siyasi liderləri" kimi beynəlxalq hüquqazidd və reallıqdan uzaq ifadələr işlədilir. Əvvəla, Fransa xalqların öz müqəddəratını təyin etmək hüququna belə hörmət edirsə, qoy hələ də müstəmləkə kimi saxladığı Korsikaya, Yeni Kaledoniyaya müstəqillik verib nümunə göstərsin. İkincisi, nə vaxtdan Qarabağda bir ovuc quldurun silah altında keçirdiyi "seçkilər" demokratik olub? O ki qaldı "Qarabağın siyasi liderləri"nə, onların harada olduqları məlumdur. Daha doğrusu, separatçılar, dinc sakinlərin qətlinə əmr verənlər və bunu "qəhrəmanlıq" kimi öyünüb bəyan edənlər harada olmalıdırlarsa, oradadırlar. Ona görə də əli dinc əhalinin qanına batanlar "siyasi məhbus" yox, qatildirlər və layiq olduqları cəzanı da alacaqlar.

Buna baxmayaraq, Fransa Senatının bütün beynəlxalq qanunlara tərs gələn qətnaməsi Ermənistanda əsl "bayram ovqatı" yaradıb. Hamı - məmurlar, siyasətçilər, politoloqlar, jurnalistlər bayram edir, bunu Azərbaycanın məğlubiyyəti kimi qələmə verirlər. Guya Azərbaycan dövləti bu qətnamədən qorxub ermənilərin Qarabağa gəlmələri üçün ayaqlarının altına qırmızı xalı sərəcək, üstəlik, onlara yenidən "öz müqəddəratını təyin etmək hüququ" verəcək və s. və i.a. Belə yerdə deyiblər, karın könlündəki.

Əgər kar deyillərsə, bir daha xatırladırıq: yerli dinc ermənilərin Qarabağdan getməməsi barədə çağırışı edən Azərbaycan dövləti olub. İndi də Azərbaycanın onların geri qayıtması üçün beynəlxalq qanunlara uyğun bir tələbi var - Azərbaycan vətəndaşlığını və Konstitusiyasını qəbul etmək. İstəyirlərsə və əllərinin qana batmadığına əmindirlərsə, buyursunlar. Dövlət onlara Konstitusiyada Azərbaycan dövlətinin bütün vətəndaşlarına və xalqlarına verilən hüquqlardan istifadə etmək imkanı yaratmaq barədə təminat verir. Həm də onu bəyan edir ki, Azərbaycan Fransada qəbul edilən absurd bir qətnaməyə görə öz prinsiplərindən və milli maraqlarından geri çəkilən deyil. Ölkəmizin mövqeyi qətidir - kimin nə deməsindən, hansı qətnamə qəbul etməsindən asılı olmayaraq, tutduğu doğru yola davam etmək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Fransalı nazir Ukraynada muzdlu fransız döyüşçülərinin olduğunu təsdiqlədi

Dünyanın harasında qarışıqlıq, münaqişə, müharibə, qanqada, ölüm varsa, Fransanın orada iştirakı birmənalı olaraq şübhə doğurmur. Bir sözlə, bu ölkənin dünyada baş verən bütün münaqişələrdə təşkilatçı və yaxud da iştirakçı qismində rolu inkarolunmazdır. Bu, heç də qlobal dünya siyasətində Fransanın əvəzolunmazlığına dəlalət etmir. Fransanın bu şakəri dünyada baş verən bütün pisliklərə özünü bulaşdırması ilə izah oluna bilər.



Onilliklər boyu davam edən Qarabağ münaqişəsinin ilk günlərindən problemin həllinə vasitəçi kimi özünü pərçim edən Paris sonrakı proseslər zamanı mələk qiyafəsinə girmiş bir şeytan olduğunu tam çılpaqlığı ilə nümayiş etdirmiş oldu...

İllərlə Ermənistanın işğal olunmuş ərazilərimizdə möhkəmlənməsi üçün maddi yardımlar göstərən, işğalçı ölkəni silah-sursatla təmin edən, ərazilərimizdə istehkamlar tikib terrorçulara hərbi təlimlər keçən Fransa 2020-ci ilin payızında baş verən Vətən müharibəsi zamanı Ermənistanın ölkəmizə qarşı dünyada apardığı şər, böhtan təbliğatına flaqmanlıq etdi. Ölkəmizə qarşı hər cür avantüraya əl atan rəsmi Paris, Azərbaycan Silahlı Qüvvələri tərəfindən darmadağın edilən Ermənistan ordusunun rəzil duruma düşdüyünü hiss edib Azərbaycan tərəfində muzdluların döyüşdüyü haqqında yalan məlumatlar yaydı. Rəsmi Parisin məqsədi dəlilsiz, sübutsuz, ortalıqda heç bir fakt olmadan yalan, saxta məlumatlardan istifadə edib nüfuzlu beynəlxalq təşkilatların gücündən və imkanından ölkəmizə qarşı təzyiqlər göstərmək idi.

Dünya qlobal siyasətində varlığını qoruyub saxlamağa çalışan Parisin bütün cəhdləri isə özünüifşa ilə nəticələnir. Rusiyanı Cənubi Qafqazdan Ermənistanın əli ilə sıxışdırıb çıxarmaq istəyən Fransa bu gün qeyri-dəqiq hesablamaları, naşılığı ucbatından bu regionda baş verən siyasi proseslərdən kənarda qalıb.

Rusiya-Ukrayna müharibəsində iştirak edən fransız muzdlu döyüşçülərinin Ukraynanın Xarkov vilayətində yerləşən dislokasiya mərkəzinin Rusiya ordusu tərəfindən məhv edilməsi barədə məlumatlar da yayılmaqdadır.

Rusiya Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatda bildirilir ki, yanvarın 16-da Xarkovda əcnəbi döyüşçülərin müvəqqəti yerləşdirilmə məntəqəsinə yüksək dəqiqliklə zərbə endirilib. Zərbə nəticəsində muzdluların yerləşdiyi bina tamamilə dağılıb. 60 nəfər həlak olub, 20-dən çox insan yaralanıb. Rusiya MN məlumatında o da qeyd olunub ki, əcnəbi döyüşçülərin əksəriyyətini fransız muzdlular təşkil edib.

Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumatı şərh edən Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirib ki, Fransa öz qeyri-hərbi vətəndaşlarına Kiyevin tərəfində döyüşmək üçün könüllü olaraq Ukraynaya getməyi qadağan edə bilməz. Ukraynada fransız muzdlu döyüşçülərinin iştirakını təsdiq edən fransalı nazir LCI telekanalına müsahibəsində bildirib ki, Ukrayna geyimində döyüşməyə gedən fransız mülki şəxslər var. Amma biz bunları qadağan edə bilmərik.

Göründüyü kimi, fransalı rəsmi şəxslər Ukraynada muzdlu döyüşçülərin olmasını inkar etmirlər. Hələ bir utanmadan bu rüsvayçılığı Fransanın "demokratik ölkə" olması ilə izah etmək istəyirlər. Utanmaq hissindən məhrum olan insanlardan hər cür ədəbsizlik gözləniləndir. Qətlə yetirdikləri insanların kəllə sümüklərini muzeylərində eksponat kimi nümayiş etdirən "mədəni fransızlar", indiyə kimi müstəmləkə altında saxladıqları xalqlara, o cümlədən Afrikaya da "demokratiya" dərsi keçməyə getdiklərini iddia etsələr, heç də təəccüb doğurmaz...

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## 80 mindən çox etirazçı küçələrə çıxıb

### Fransada kütləvi aksiyalar keçirilir

Fransada immiqrasiya qaydalarını sərtləşdirən qanunun qəbuluna qarşı keçirilən yürüşdə minlərlə insan iştirak edib. Qanunun əleyhdarları onun ifrat sağçı qüvvələrin qələbəsi olacağına inanır və prezident Emmanuel Makrondan sənədi imzalamamağı tələb edirlər.








Aralarında Afrika ölkələrindən immiqrantların da olduğu etirazçılar Trokadero meydanından Əlillər meydanına doğru irəliləyiblər. Nümayişçilər Fransanı həmrəylik ölkəsinə çevirməyə və bütün mühacirlərə sənəd verməyə çağırıblar.

Aksiya iştirakçıları yanvarın 25-də qanun layihəsinin konstitusiya normalarına uyğunluğu barədə qərar qəbul edəcək Fransa Konstitusiya Şurasına müraciət etmək niyyətindədirlər.

Qanunun qəbuluna qarşı yürüş mədəniyyət xadimlərinin, elm adamlarının, din xadimlərinin, həmkarlar ittifaqlarının, müxtəlif assosiasiyaların və solçu partiyaların - sosialistlərin (PS), Yenilməz "Fransa"nın (LFI), yaşılların (EELV) və kommunistlərin (PCF) çağırışı ilə keçirilir. Yürüş çağırışına 201 imza toplanıb.

"Le Monde" qəzetinin məlumatına görə, Fransada qanunun qəbuluna qarşı ümumilikdə 160 etiraz aksiyası keçirilib. Ötən bazar günü Parisdə 25 min, Marseldə 2,5 min, Lionda 2,3-3 min, Renndə 1,6 min nəfərin etiraz yürüşlərinə qatıldığı bildirilir. 400-dən çox assosiasiya, həmkarlar ittifaqı, kollektiv və partiya etiraz aksiyalarına çağırılıb.

Fransa parlamenti 2023-cü ilin dekabrında immiqrasiyanın sərtləşdirilməsinə dair qanun layihəsinin mətnini təsdiqləyib. Lakin bu sənəd bir çox fransız siyasətçilərinin etirazına səbəb olub. Belə ki, Fransa Səhiyyə Nazirliyinin rəhbəri Orellan Russo qanunla razılaşmadığı üçün istefa verib. Solçu qüvvələrin hakimiyyətdə olduğu bəzi bölgələr qanunun icrasından imtina edəcəklərini bildiriblər. Buna cavab olaraq Makron qanun layihəsinin mətnini qərar qəbul edilməsi üçün Konstitusiya Şurasına göndərib.

Fransada Cerald Darmanen qanunu adlanan yeni immiqrasiya və sığınacaq qanunu qeyri-leqal miqrantların deportasiyası üzərində nəzarəti gücləndirmək üçün tədbirləri ehtiva edir və cinayət törətmiş əcnəbilərin Fransadan deportasiya edilməsinə icazə verir. Darmanen qeyd edib ki, bu, hökumətin indiyə qədər təqdim etdiyi ən sərt qanun layihəsidir.

O, həmçinin Fransada ailə vizası ilə qalma qaydalarının sərtləşdirilməsini və ölkəyə gələn miqrant ailələrinin üzvləri üçün məcburi fransız dili imtahanının tətbiqini təklif edib.

Yürüş iştirakçılarından biri, fransalı qadın Ann deyir: "Bu qanun çox ədalətsizdir, çünki biz sadəcə olaraq miqrantları istismar edirik. Ölkəyə gəlirlər, deyirlər ki, onlar Fransaya lazım deyil, amma biz onları istismar edirik. Bu düzgün deyil. Onların da hüquqları var, ona görə də hüquqları tanınmalıdır. Bizə onların normal olması lazımdır".

Son məlumata görə, artıq 80 mindən cox etirazçı küçələrə çıxıb.

Bu arada, Fransanın cənubundakı Oksitaniya bölgəsində fermerlərin etirazları davam edir.

Tuluza yaxınlığındakı magistral yol bağlı olaraq qalır və Ariege bölgəsindəki əsas yollardan birində maneənin yaradılması planlaşdırılıb.

Son aylarda Oksitaniya bölgəsindəki fermerlər, xüsusən də yanacaq qiymətlərinin artması və mal-qara xəstəlikləri fonunda təcili olaraq əhəmiyyətli yardım göstərmək və məhsulun suvarılmasına üstünlük verən su siyasətini tətbiq etmək üçün hökumətə təzyiq səylərini artırıblar.

Fransanın ən böyük kənd təsərrüfatı birliyi olan FNSEA yaxın günlərdə ümummilli etiraz aksiyalarının təşkilini nəzərdən keçirir. Fransanın cənub-qərbində yüzlərlə traktor və fermer tıxaclara səbəb olub. Fermerlərin şikayətləri arasında traktor yanacağına dövlət rüsumunu, ucuz idxalı, suyun saxlanması ilə bağlı problemləri, həddindən artıq məhdudiyyətləri və bürokratiya halları yer alıb.

Hazırda onlar problemlərinin həlli üçün başıbəlalı ölkə başçısı Makronla görüş tələb edirlər.

Fransada etirazlar prezident Emmanuel Makronun iyun ayında keçiriləcək Avropa Parlamentinə seçkilər ərəfəsində fermerlər arasında sağçıların dəstəyinin artmasından qorxduğu bir vaxta təsadüf edir. O, nazirlər kabinetinə yeni nümayişlərin və "Sarı jiletlilər" etiraz hərəkatının yenidən canlanmasının qarşısını almaq üçün kənd problemlərinə xüsusi diqqət yetirməyi tapşırıb. Ancaq deyəsən, "qatar artıq gedib"…

Son məlumata görə, fransız fermerlər ölkənin cənub-qərbində yerləşən Tar-an-Qaronna şəhərindəki atom elektrik stansiyasına girişi bağlayıblar. Ölkədə aşağı tədarük qiymətləri və Aİ-nin kənd təsərrüfatı siyasətinə qarşı etirazlar güclənir. Etirazı təşkil edən liderlər hökuməti nümayişləri daha da genişləndirməklə hədələyirlər.

Yanvarın 22-də Fransa fermerlər birliyinin vitse-prezidenti Lük Smessart bununla bağlı hökumətə xəbərdarlıq edib: "Kənd təsərrüfatı etirazları hər gün artacaq! Fransanın bir çox departamentlərində fəaliyyətlər genişləndiriləcək".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bütöv Azərbaycanda birdəqiqəlik sükut

Hər il yanvarın 20-də Azərbaycan xalqı müasir dövlətçilik tariximizin həm qanlı, həm də şanlı səhifəsini dərin kədər və qürurla qeyd edir. 1990-cı ildə həmin gün Azərbaycan xalqı azadlıq mücadiləsinin ilk şəhidlərini verdi.


Bakı 20.01.2024


Xankəndi 20.01.2024

Bu uzun və əzablı yolun başlanğıcı idi. Əliyalın xalq ona 70 il bərabərlik və sosializm fəlsəfəsi təlqin edən bir imperiyanın əsl simasının, zülm və istibdadının şahidi olmuşdu. İnsanlara rəhm edilmədən, öz vətəndaşına acımadan imperiya ordusu Azərbaycanı yenidən hədəfə götürdü. Bu hadisə müstəqilliyə gedən yolda ilk sınağı idi Azərbaycanın. Həm xalq kimi, həm də bir dövlət kimi Azərbaycan bu imtahandan layiqincə çıxa bildi. Faciədən iki gün sonra xalqımız şəhidlərini çiyinlərində, ləyaqətlə dəfn etdi. Həmin gün hamı bir nəfər kimi müqəddəs övladları ilə vidalaşmağa tələsirdi. Hamı bundan sonra müqəddəs and yerimizə çevriləcək xiyabanda idi. Həmin izdiham çoxları üçün, əsasən də o dövrün hakimiyyəti üçün gözlənilməz olduğu qədər vahiməli idi. Çünki Azərbaycan xalqı artıq azadlıq şərbətini dadmışdı və bu yoldan geri dönüş yox idi.

Zaman keçdi - Azərbaycan müstəqil dövlət oldu. Lakin bu hadisə unudulmadı, əksinə, azadlıq mübarizəmizin simvoluna çevrildi. Qanlı Yanvar hadisələrinə əsl hüquqi-siyasi qiyməti Ümummilli Lider Heydər Əliyev vermişdi. Məhz onun sərəncamı ilə 2000-ci ildən 20 Yanvar Ümumxalq Hüzn Günü kimi qeyd olunmağa başladı. Artıq 24 ildir ki, bu günü xalqımız ümumxalq hüzn kimi qeyd edir. 34 ildir ki, xalqımız - mövqeyindən, peşəsindən asılı olmayaraq, hamı həmin gün bütün işlərini təxirə salaraq xiyabana üz tutur, qəhrəman övladlarını anır. Həmin gün saat 12-də respublikamızın hər bir yerində birdəqiqəlik sükutla şəhidlərimizin xatirəsi yad edilir.

Qanlı Yanvar hadisələrinin 34-cü ildönümü bir qədər fərqli oldu. Bu 20 yanvarda sükut bütöv Azərbaycana çökdü. Vətənimizin hər guşəsində, hər şəhərində, hər kəndində birdəqiqəlik sükut bizi bir daha duyğulandırdı. Xankəndidəki, Xocalıdakı birdəqiqəlik sükut, sanki keşməkeşli müstəqillik mübarizəmizin finalı idi. Azərbaycan xalqı həmin sükutu təmin etdi, dünya onu gördü və düşmən onu qəbul etdi. Bu qədər düşməni olan, tarixin hər səhifəsində xəyanətlərlə üzləşən, lakin sınmayan, özündə güc tapıb zaman-zaman dirçələn Azərbaycan xalqı bu gün öz düşmənlərinin başında olanları özü, öz paytaxtında mühakimə edir. Müasir dövrdə dövlətçilik fəlsəfəsinin ən ağır və sağalmaz yarası - vəbası olan separatizmin kökünü belə kəsmək hansı bir xalqa nəsib olub?!. Həqiqətən də XXI əsrdə elə bir xalq yoxdur ki, Azərbaycan xalqı qədər bu mənada qürurlu olsun.

Bütöv Azərbaycana çökmüş bu sükut 20 Yanvar şəhidləri ilə yanaşı, Vətən müharibəsi, eləcə də əsrlər boyu xalqımızın azadlıq yolunda qurban verdiyi qəhrəman övladlarının ruhlarına ehtiram nümunəsi kimi tarixə yazıldı. Yazıldı ki, bu torpaqda yaşayan hər bir kəs o sükuta qərq olsun və heç kim bu sükutu pozmağa cəhd belə edə bilməsin.

*Elçin VƏLİYEV,*
*"Azərbaycan"*

# Füzulililərin şad günü

## Daha 30 ailə - 106 nəfər doğma yurda qovuşdu

Tarixi zəfərimizdən qısa müddət keçməsinə baxmayaraq, azadlığına qovuşan torpaqlarımızda sürətlə müasir infrastruktur qurulur, "ağıllı" kənd və şəhərlər salınır, hava limanları tikilir, tarixi, dini və mədəni abidələrin bərpası həyata keçirilir.



Regionun biomüxtəlifliyinin, təbiətinin qorunması və mövcud potensialdan səmərəli istifadə edilməsi, kənd təsərrüfatı istehsalının yenidən fəaliyyətə başlaması istiqamətində müvafiq işlər görülür.

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailənin işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulur. Ötən dövrdə həyata keçirilən layihələr onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlinir. Ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına qovuşurlar.

Dünən Bakı və Sumqayıt şəhərlərində, Abşeron, Beyləqan və Füzuli rayonlarında yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 106 nəfər köçürülüb. Beləliklə də, şəhərdə 440 ailə, 1625 nəfərin daimi məskunlaşması təmin edilib. Böyük qayıdış çərçivəsində Füzuli şəhərində 295 nəfərin məşğulluğu təmin olunub.

Yurda dönüşlərini 30 il gözləyən füzulililər bizimlə təəssüratlarını bölüşüblər. Sumqayıt şəhərində məskunlaşdıqlarını bildirən keçmiş məcburi köçkün Ağgül Məmmədova deyib ki, Füzuliyə qayıtdığı üçün sevincinin hədd-hüdudu yoxdur: "Yurdumdan gənc yaşlarımda ayrıldım, çox ağrılı-acılı günlər yaşadım. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı. Ailəmlə birlikdə Füzuliyə qayıdıram, doğma el-obamı görmək üçün səbirsizlənirəm".

Birinci Qarabağ müharibəsinin iştirakçısı Füzuli sakini Taleh Əhmədov ötən illər ərzində hər gün torpaqlarımızın azad olunacağını gözlədiyini bildirib: "Bu gün çox sevincli və qürurlu günlərdən biridir. Doğma el-obamıza - Füzuliyə qayıdırıq. Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Otuz il düşmən tapdağında olan torpaqlarımız azad olundu və doğma yurd həsrətimiz sona çatdı. Hələ gənc yaşlarımda yurdumuzdan köçkün düşdük. İndi isə ailəmlə ata ocağıma qayıdıram. Bizə bu günləri yaşadan qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən öz axarına qayıdır. Torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla yeni həyata başlayırlar.

Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 440 ailə (1625 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1246 ailə - 4924 nəfər elinə, obasına qovuşub.

Tezliklə dövlət başçımızın birbaşa nəzarəti ilə yurdlarından didərgin salınan, uzun illərdir doğma yerlərinin nisgilini çəkən, məcburi köçkün həyatı yaşayan vətəndaşlarımızın hamısı əzəli torpaqlarına qovuşacaqlar. Bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına dönəcəklər. Bununla da 30 illik həsrətə birdəfəlik son qoyulacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR
AZƏRBAYCAN
Milli qürur və qəhrəmanlıq tariximiz
20 Yanvar faciəsi Ümummilli Lider Heydər Əliyevin sayəsində əsl siyasi-hüquqi qiymətini aldı
Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib
Qanlı Şənbə gecəsində şəhid olanların ruhu indi şaddır
Birinci vitse-prezident Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib
Boş qalmış partalar...
Sevgiyə sədaqətin ürəklərdə ucalan əbədi heykəli
20 Yanvar - 8 noyabr zəfərimizin bünövrəsi
Xalqımızın şərəf salnaməsi

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



### "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti obyektlər üzrə mövcud olan yanğın xəbərverici sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



### "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan plastik boruların və fitinqlərin satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1162.**

***Tender komissiyası***


# Ödənişli yolda maksimum sürət həddi və radar nişanları quraşdırılıb

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolu üç aydır istifadəyə verilib. Amma indiyə kimi sürücülər arasında yolda maksimal sürət həddi ilə bağlı müzakirələr aparılır.

AZƏRTAC xəbər verir ki, artıq ödənişli avtomobil yolunda maksimal sürət həddini göstərən yol nişanları quraşdırılıb. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 129 kilometrlik ödənişli hissəsində ən yüksək sürət həddi 110 km/saatdır. Yolun başlanğıc nöqtəsi - Yeni Yaşma ödəmə məntəqəsindən, son nöqtəsi - Yeni Sudur ödəmə məntəqəsinədək olan hissəsində bütün yolboyu sürət həddini göstərən nişanlara rast gəlmək olar.

Bununla yanaşı, yaxın vaxtlarda yolda radarlar və digər xüsusi texniki vasitələrin quraşdırılması da nəzərdə tutulub. Artıq yolboyu radar və videokamera nişanları yerləşdirilib. Hazırda ödəmə məntəqələrində də yalnız pos-terminal vasitəsilə nağdsız qaydada ödəniş etmək mümkündür. Yeni yolda hələlik yanacaqdoldurma və təmir məntəqələri fəaliyyət göstərmir.

Hazırda yoldan daha çox yük avtomobilləri istifadə edir. Həftəsonları isə yolda minik avtomobillərinin sayı da çoxalır. Şimal bölgəsinə istirahətə gələnlər yeni yoldan istifadə etməyə üstünlük verirlər.


UNHCR
The UN Refugee Agency

### Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) *Bakıdakı ofisi tender elan edir*

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK-ın) Azərbaycandakı Nümayəndəliyi ixtisaslı xidmət təminatçılarını Azərbaycanda qaçqınlar və sığınacaq axtaranlar üçün hüquqi yardım xidmətlərinin göstərilməsi üçün Xidmət Müqaviləsi bağlamaq məqsədilə rəsmi təklif irəli sürməyə dəvət edir.

Tender barədə ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiniz:

**http://www.azerweb.az/en/event.php?id=10959**
**Sənədlərin son təqdimetmə tarixi 18 fevral 2024-cü il.**



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə əzizi

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Aygül Əbdürrəhimliyə atası

**RAMİZ ƏBDURRƏHİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Maliyyə Departamentinin Əməliyyat şöbəsinin müdiri Cəbrayıl Kərimova qızı

**MƏLƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3695
Sifariş 99

Qiyməti 60 qəpik